

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Unudulmaz alim, mehriban ana, qayğıkeş insan



3

SƏS

№ 142 (7067)

9 avqust 2024-cü il.
Qiymət 60 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanda səfərdədir



2

# Seçkilərin təbliğat-təşviqat kampaniyası başladı

Namizədlərarası rəqabətin gərgin keçməsi proqnozlaşdırılsa da, sonda qazanan Azərbaycan dövləti olacaq



5

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib



4

## Azərbaycan idmançısı Paris Olimpiadasında gümüş medal qazanıb



16

## ““Böyük Qayıdış”ın arealı və miqyası daha da genişlənəcək”



10

## Dövlət və özəl uşaq bağçaları: hansına doğru?..



6

## Türkiyənin “Polad günbəz”i



8





# Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanda səfərdədir



Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün avqustun 8-də Qazaxıstana səfərə gəlib. Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər qarşılayıblar.

Avqustun 8-də Qazaxıstanın paytaxtı Astana şəhərində "Veçer drujbı" adlı qala konsert keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Qlobal vəziyyət Rusiya və Azərbaycandan təhlükəsizliyin möhkəmləndirilməsinə dair yeni əlaqələndirilmiş qərarlar tələb edir

Azərbaycan Prezidenti İlham Əliyev Sergey Şoyqu ilə dəfələrlə söhbət edib. Əvvəllər onu Bakıda Rusiya Müdafiə Nazirliyinin rəhbəri qismində qəbul ediblər və danışıqların hər biri dolğun və konstruktiv olub. Sergey Şoyqunun yeni statusu və Vladimir Putinin ona verdiyi xüsusi səlahiyyətlər müzakirə edilən məsələlərin əhatə dairəsini xeyli genişləndirib. Bu kontekstdə postsovet məkanında, Avrasiyanın cənub hissəsində və qlobal miqyasda gərginliyin artması fonunda yaranan vəziyyətin Rusiya və Azərbaycan kimi tarixən dostluq əlaqələrinə malik olan strateji tərəfdaşlardan təhlükəsizliyin möhkəmləndirilməsi, həmçinin milli maraqların və dövlət suverenliyinin müdafiəsi üzrə ən geniş spektrdə əlaqələndirilmiş yeni qərarların işlənib hazırlanmasını tələb etdiyini qeyd etmək lazımdır.

Bu fikirləri AZƏRTAC-la rusiyalı politoloq, "PolitRus" ekspert-analitika mərkəzinin rəhbəri Vitali Arkov Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Azərbaycana səfərini və Prezident İlham Əliyevin onu qəbul etməsini şərh edərkən bölüşüb.



Ekspert Sergey Şoyqunun Tehrana səfərindən sonra Bakıda keçirilən yüksəksəviyyəli görüşdə dövlətimizin başçısı ilə əsas həlqəsi Azərbaycan olan və artıq iştirakçı ölkələrin tərəqqisinin ciddi hərəkətvericisinə çevrilən multimodal "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafını müzakirə etməsini tamamilə məntiqli adlandırıb.

"Tamamilə aydındır ki, getdikcə daha çox dövlət və ərazi "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə əlaqə qurmağa çalışır. Biz BRICS, ŞƏT və Aİİ tərəfindən böyük marağın olduğunu müşahidə edirik. Azərbaycan Qlobal Cənubun əsas dünya proseslərinə təsirinin artması ilə eyni vaxtda siyasi, iqtisadi və ekoloji (COP29-a ev sahibliyi edən ölkə kimi) avanqardda xüsusi yer tutur", -deyə agentliyin həmsöhbəti qeyd edib.

V.Arkov ehtimal edir ki, Tehrana səfərin yekunlarına dair Bakıda keçirilən görüşdə təkcə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində deyil, həm də xüsusi əhəmiyyət kəsb edən digər sahələrdə üçtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Onun sözlərinə görə, bu məsələ Moskva ilə İrəvan arasında münasibətlərdə artan problemlər nəticəsində gündəmə gəlib. Belə ki, Ermənistan əvvəllər Rusiya ilə İran arasında ictimaiyyətə açıqlanmayan təmaslarda yaxından iştirak edib, lakin sonradan rəsmi şəkildə qərbyönlü xarici siyasət kursu götürüb və əlbəttə ki, öz ərazisini ABŞ və Fransanın bölgədəki çirkin maraqlarının forpostuna çevirməyə imkan verib".

"Demək olar ki, Ermənistanın tezliklə Rusiya ilə birlikdə tarixən əsaslandırılmış yola qayıdacağı dəqiqdir. Lakin İrəvanın qeyri-sabitliyi və etibarsızlığı nəticəsində Moskva və Tehran seçimini əldə olunmuş razılaşmalara ciddi əməl edən və beynəlxalq statusda bərabərhüquqlu tərəfdaş olan Bakının xeyrinə əvvəlcədən müəyyən ediblər", -deyə rusiyalı politoloq sözlərinə yekun vurub.

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

***Avqustun 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. Əvvəlcə Komissiyanın avqustun 5-də keçirilən iclasının protokolu təsdiq edilib. Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Müsavat Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.***



Daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə 7 saylı Səbail və 37 saylı Qaradağ seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub.

Komissiyanın iclasında beynəlxalq müşahidə missiyası təmsilçilərinin və maraqlı subyektlərin bilavasitə iştirakı ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə də baxılıb. Aparılan geniş müzakirələrdən sonra MSK namizədliyin imtinası ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarını ləğv edərək, daha bir nəfərin Milli Məclisə seçkilərdə namizədliyini qeydə alıb. Media nümayəndələri tərəfindən operativ şəkildə işıqlandırılan iclasda cari məsələlərə də baxılıb.

# Unudulmaz alim, mehriban ana, qayğıkeş insan

## Zərifə xanım Əliyevanı böyük qürurla anırıq

***Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik oftalmoloq həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə iki layiqli övlad, eyni zamanda müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana obrazıdır, Zərifə xanım Əliyeva. Hər zaman nur saçan qadının həyat yoluna nəzər saldıqca gözlər qarşısında Azərbaycanın daim qürurla andığı bir qadın canlanır. Tarix məhz belə insanların sayəsində yaranır, onların nəcibləşən ömürləri gələcək nəsillərə örnək, nümunə olur.***



### İşıqlı ideallara doğru

Bir bahar günündə dünyaya göz açan, həyatının bütün illərini bahar ömrü yaşadığı üçün elə baharda da dünyadan köçən Zərifə xanım Əliyeva görkəmli həkim, sədaqətli və mehriban həyat yoldaşı, qayğıkeş ana, əsl insan kimi hər an gözəl duyğularla anılır.

Zərifə xanım Əliyeva qədim Naxçıvan diyarında, Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdı. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdı. Zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi.

Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi. Fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və O, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

### Gözlərə nur həkim

Zərifə xanım Əliyeva ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Onun başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi.

Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.



Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq indi də tətbiq edilir və insanlara nur bəxş edir. Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirmişdir. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır. Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"

### Tibb elminə saysız töhfə

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir. Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı.

Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

### Sədaqətli həyat yoldaşı, qayğıkeş ana

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan Ulu Öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur.

Ardı Səh. 4

# YAP Mərkəzi Aparatında müşavirə keçirilib

***Avqustun 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərdə YAP tərəfindən deputatlığa irəli sürülmüş namizədlərin və partiyanın yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.***










Müşavirədə Yeni Azərbaycan Partiyasının ölkə üzrə 125 seçki dairəsindən irəli sürdüyü bütün namizədlərin qeydə alındığı vurğulanaraq onlara bundan sonrakı mərhələdə uğurlar arzulanıb.

Sonra YAP İdarə Heyətinin 2024-cü il 3 iyul tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, ötən müddət ərzində nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi qeyd edilərək istər partiyanın Mərkəzi Seçki Qərargahının, istərsə də yerli seçki qərargahlarının fəaliyyəti müsbət qiymətləndirilib, imzatoplama kampaniyasında iştirak edən bütün partiya fəallarına təşəkkür ifadə olunub.

Vurğulanıb ki, 125 nəfər xüsusi icazəli müşahidəçi səsvermə gününədək dairə seçki komissiyalarının, 1 nəfər isə Mərkəzi Seçki Komissiyasının iclaslarını



müşahidə edəcək, 817 nəfər Azərbaycan Respublikasının bütün seçki dairələrində, 12686 nəfər məntəqə seçki komissiyalarında səsvermə günü müşahidə aparacaq. Bununla yanaşı, 1 nəfər Mərkəzi Seçki Komissiyası üzrə məşvərətçi səs hüquqlu üzv, 6468 nəfər isə dairə və məntəqə seçki komissiyaları üzrə məşvərətçi səs hüquqlu üzvlər təyin olunub.

Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı izahat və məlumat verilməsi məqsədilə təlimlərin keçiriləcəyi də diqqətə çatdırılıb.

Avqustun 9-dan başlayacaq seçkiqabağı təşviqat mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılıb, qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının zəruriliyi diqqətə çatdırılaraq müvafiq tapşırıq və tövsiyələr verilib. Yeni Azərbaycan Partiyasının seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığı vurğulanıb və tədbir iştirakçıları YAP Mərkəzi Aparatı tərəfindən hazırlanmış seçki platforması və digər təbliğat-təşviqat materialları ilə tanış ediliblər.

Diqqətə çatdırılıb ki, YAP 60-dan çox seçki dairəsindən namizədləri qeydə alınan siyasi partiya kimi İctimai Televiziya və Radio Yayımları Şirkəti və MSK tərəfindən müəyyən olunmuş mətbu orqanları vasitəsilə ödənişsiz seçkiqabağı təşviqat aparmaq hüququna malik olsa da, demokratik prinsipləri rəhbər tutaraq seçkiqabağı təşviqat mərhələsində digər partiya nümayəndələri və bitərəf namizədlərlə bərabər şərtlərdə rəqabətin aparılması məqsədilə bu imtiyazdan istifadə etməmək barədə qərar qəbul edib. Sonda seçkiqabağı təşviqat mərhələsində istifadə olunacaq təbliğat-təşviqat materialları müvafiq bölgüyə əsasən deputatlığa namizədlərə və yerli seçki qərargahlarının sədrlərinə təqdim olunub.




Əvvəli Səh. 3

# Unudulmaz alim, mehriban ana, qayğıkeş insan

## Zərifə xanım Əliyevanı böyük qürurla anırıq

O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dərin hisslər oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

Ömrünün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən Lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan



amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. 8 avqust - Beynəlxalq Oftalmoloqlar Günüdür. Biz hər zaman Zərifə xanım Əliyevanı böyük qürurla anırıq!

***Mətanət Məmmədova***

# Seçkilərin təbliğat-təşviqat kampaniyası başladı

## Namizədlərarası rəqabətin gərgin keçməsi proqnozlaşdırılsa da, sonda qazanan Azərbaycan dövləti olacaq







Azərbaycan yeni taleyüklü tədbir ərəfəsindədir. Sentyabrın 1-də keçiriləcək parlament seçkiləri dövlətimizin uğurlarının, qazandığı nailiyyətlərin daha geniş və davamlı olmasına dəstək olacaq. Artıq parlament seçkilərinə hazırlıq işləri tam şəkildə başa çatıb. Mərkəzi Seçki Komissiyası seçicilərlə görüşlərin keçirilməsi üçün namizədlərə yerlərin ayrılması siyahısını elan edib, seçicilər və müşahidəçilər üçün ”Müşahidəçilər üçün yaddaş” kitabçası hazırlayıb. Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar MSK-nın maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki iştirakçıları üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir. Genişmiqyaslı proqrama uyğun olaraq hazırlanan ”Müşahidəçilər üçün yaddaş” kitabçasının başlıca məqsədi Milli Məclisə seçkiləri izləyəcək müşahidəçiləri məlumatlandırmaq, sərbəst fəaliyyətlərini daha da təkmilləşdirmək və onlara metodiki köməklik göstərməkdir. Azərbaycan, ingilis və rus dillərində hazırlanan nəşrdə Seçki Məcəlləsinin əsas aidiyyəti müddəa və anlayışlarının izahı verilib, müşahidə aparılmasının prinsipləri əks olunub, eləcə də müşahidəçilərin hüquq və vəzifələri aydın şəkildə göstərilib.Yaddaş kitabçası Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında tərtib olunub.”Müşahidəçilər üçün yaddaş” kitabçasını aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək olar.

### ”Seçkilərlə əlaqədar ümumilikdə 18 467 yerli müşahidəçi qeydə alınıb”

Ölkə üzrə, o cümlədən işğaldan azad edilən ərazilərdə seçki məntəqələri yaradılıb. Əgər 7 fevral 2023-cü il də keçirilən prezident seçkiləri ilə əlaqədar işğaldan azad edilən ərazilərdə ümumilikdə 30 seçki məntəqəsi yaradılmışdırsa və səsvermədə iştirak edən seçicilərin sayı 5 min nəfər idisə, bu gün artıq 55 seçki məntəqəsi yaradılıb və seçiciləri sayı 8 minə yaxındır. MSK sədri Məzahir Pənahov bildirib ki, indiyə qədər 24 partiyanın 287 nümayəndəsinin namizədliyi qeydə alınıb. M.Pənahov onu da bildirib ki, sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar 27 ölkə və 9 qurumdan 101 beynəlxalq müşahidəçi qeydə alınıb: ”Seçkilərlə əlaqədar ümumilikdə 18 467 yerli müşahidəçi qeydə alınıb. Onlardan 5588 müşahidəçi MSK-da, 12879 DSK-larda qeydə alınıb”.

Proseslərin inkişafı onu deməyə əsas verir ki, Azərbaycanda keçiriləcək parlament seçkilərinə dünyanın bir çox ölkələrindən, beynəlxalq təşkilatlardan ciddi şəkil izlənilir. Hətta Azərbaycandakı seçki prosesinə daim qərəzlə yanaşan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) Azərbaycanda 300-dən çox müşahidəçi ilə təmsil olunmaq istəyir.

### Seçkiqabağı təşviqat səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır

Avqustun 9-dan seçkilərin təbliğat-təşviqat dövrü başlayır. Seçki Məcəlləsinin 72.3, 74.1.2, 74.1.4 və 75.2-ci maddələrinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən seçkiqabağı təşviqatın aparılmasına səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Bütün bu kimi qaydalar və tələblər Mərkəzi Seçki Komissiyasının ”Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nda öz əksini tapıb. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerlərinin siyahısı da açıqlanıb. Siyahıda Milli Məclisə növbədənkənar seçkilərdə qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün 3259 açıq, 1854 qapalı olmaqla, ümumilikdə 5113 yerin ayrıldığı göstərilib.

### MSK KİV-lərlə, eləcə də Mətbuat Şurası və Medianın İnkişafı Agentliyi ilə geniş əməkdaşlıq əlaqələri qurub

Seçki prosesinin gedişi və baş verən proseslərlə bağlı geniş və ətraflı məlumatların ictimaiyyətə çatdırılması üçün MSK KİV-lərlə, eləcə də Mətbuat şurası və Medianın İnkişafı Agentliyi ilə geniş əməkdaşlıq əlaqələri qurub. Avqustun 8-də Mərkəzi Seçki Komissiyasının (MSK), Medianın İnkişafı Agentliyinin (MEDİA), Audiovizual Şura və Mətbuat Şurasının təşkilatçılığı ilə seçkiqabağı təşviqat imkanları və media subyektlərinin Milli Məclisə seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunan müşavirə keçirilib.Müşavirədə aidiyyəti qurumların nümayəndələri və media subyektlərinin rəhbərləri iştirak edib. MSK sədri Məzahir Pənahov çıxışında bildirib ki, media nümayəndələri daim prosesin içərisində olduğundan seçkini obyektiv işıqlandırmalıdırlar: ”Milyonlarla insanın iştirak etdiyi hansısa tədbiri dünyanın istənilən yerində səhvsiz keçirmək mümkün deyil. Bu cür tədbirlərdə kimlərsə bilərəkdən və ya bilməyərəkdən, əksəriyyət isə bilməyərəkdən hansısa qanun pozuntusuna yol vermiş olur. Hansısa məntəqədə qanun pozuntusu baş veribsə, həmin məntəqənin nəticələri ləğv olunmalıdır. Burada qəbahətli heç nə yoxdur. Dünyanın hər yerində bu, belədir. Qanun pozuntusuna yerində baxmaq və qərar çıxarmaq lazımdır”.

### Əhməd İsmayılov: ”Təcrübə göstərir ki, seçkilər zamanı ölkəmizin informasiya mühitinə kənardan yönləndirilən təhdidlər artır”

Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov isə qeyd edib ki, seçkilərin mediada işıqlandırılması prosesini operativ izləmək üçün Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən monitorinq həyata keçirilməkdədir: ”Bu da dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edən tədbirlər ərəfəsində mediamızın məsuliyyətini, baş verənlərə çevik reaksiyasını daha da artırır. Təcrübə göstərir ki, seçkilər zamanı ölkəmizin informasiya mühitinə kənardan yönləndirilən təhdidlər artır, informasiya manipulyasiyasının bütün formalarının sistemli şəkildə tətbiq edilməsi halları müşahidə olunur. İctimai rəyi çaşdırmağa, ölkəmiz haqqında mənfi rəy yaratmağa yönəlmiş bu kimi hallara qarşı sayıqlığımızı daha da artırmalıyıq. Medianın İnkişafı Agentliyi qərəzli və sistemli şəkildə ölkəmizə qarşı yönəlmiş feyk xəbərlərin vaxtında, operativ qaydada aşkarlanıb ifşa olunması üçün digər müvafiq dövlət qurumları ilə sistemli iş aparmaqdadır. Bu qəbildən olan təhdidlərin təsir dairəsinin azaldılmasında Azərbaycanın ciddi media subyektlərinin çevik dəstəyi həmişə vacibdir”.

Audiovizual Şuranın sədri İsmət Səttarov isə seçkiqabağı təşviqatla bağlı Seçki Məcəlləsinin tələblərini müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Mətbuat Şurasının sədri Rəşad Məcid isə çıxışında parlamentə seçkiləri ilə əlaqədar Mətbuat Şurasında ”Qaynar xətt” yaradılacağını bildirib.O, seçkilərdə iştirak edən namizədləri ödənişli təbliğat vasitələrindən istifadə etməyə, media subyektləri ilə əməkdaşlığa çağırıb. Görülən yüksək səviyyəli seçkilərə hazırlıq işləri onu deməyə əsas verir ki, sentyabrın 1-də əhali yüksək əhval-ruhiyyə ilə seçki məntəqələrinə gedərək istədikləri namizədə səs verəcəklər. Təbii olaraq seçkilərin təbliğat-təşviqat kampaniyası dövründə namizədlərin bir-birinə ünvanlanan iradları, qınaqları da olacaq. Ancaq inandırıcı deyil ki, rəqiblər deyirmi masalarda, seçicilərlə görüşlərdə, TV-lər də açıq diskussiyalarda bir-birini təhqir edən, ittiham edən fikirlər səsləndirsinlər. Bir-birinin dostcasına qınaq edilməsi seçicini daha dərindən düşünməyə və seçim edərkən nəyə və kimə üstünlük verməsinə hesablanır. Lakin sentyabrın 1-də keçiriləcək parlament seçkilərində kimin qutudan çıxmasından asılı olmayaraq qalib Müstəqil Azərbaycan dövləti olacaq.

***İLHAM ƏLİYEV***

# Dövlət və özəl uşaq bağçaları: hansına doğru?..



Bağça uşaqların qədəm qoyduğu ilk sosial ünvandır. Burada uşaqlar sosiallaşır, onların dünyagörüşü formalaşır, dost və rəfiqə seçmək xüsusiyyəti yaranır. Ən əsası isə uşaqlar bağçalarda həyat və elm haqqında ilkin element və biliklərə yiyələnməyə başlayır. Valideyn övladını günün bir neçə saatı ərzində uşaq bağçalarına etibar edir. Belə isə bağçalar elə bir səviyyədə olmalıdır ki, bu etibarlılığı daim qoruyub saxlaya bilsin. Müasir dövrdə isə dövlət və özəl bağçaları arasındakı oxşar və fərqli cəhətlər fonunda valideyn öz seçimini elə etməyə çalışır ki, həm özü, həm də övladı rahat olsun. Bu rahatlığı isə təbii ki, etibarlılığı ehtiva edir. Belə isə hazırda hansı bağçalara üstünlük verilir: dövlət, yoxsa özəl bağçalara? Bu seçim nəyə görədir? Bu barədə danışaq.



### Seçim maddi vəziyyətə görədir

Hər bir valideyn istəyər ki, övladını hərtərəfli şəraiti olan bağçaya qoysun. Lakin burada təbii ki, maddi vəziyyət əsas tol oynayır. Elə uşaqların dövlət, yoxsa özəl bağçalara göndərilməsini də ailənin ümumi gəlirləri tənzimləyir.

Bu gün ölkəmizdə olan 1 844 məktəbəqədər təhsil müəssisəsinin 1 696-i dövlət, 148-i özəldir. Özəl məktəbəqədər təhsil müəssisələrinin daha çox hissəsi körpələr evidir. Körpələr evlərinin sayı 80, uşaq bağçalarının sayı isə 68-dir.

Baxmayaraq ki, dövlət uşaq bağçalarının sayı özəllərdən dəfələrlə çoxdur, lakin təəssüf ki, bu gün uşaqların cəmi 25 faizi bağçalara gedə bilir. Qalan 75 faiz isə kənarda qalır. Bu isə onun göstərir ki, uşaq bağçaları, istər dövlət, istər özəl olsun, azlıq təşkil edir. Qaldı bağçalardakı şəraitə, vəziyyətə, hazırda özəl bağçalar üstünlük təşkil edir. Elə bu səbəbdən də valideynlər özəl bağçaları seçirlər. Hansı valideynlər, təbii ki, özəl bağçaya uşaq qoymağa maddi vəziyyəti uyğun olan valideynlər. Özəl bağçaların qiymətinə gəlincə isə, bu, heç də ölkədə hər kəs üçün əlçatan deyil. Qiymətlərə bir neçə bağçanın üzərindən nəzər salaq.

"Yaşıl ada" uşaq bağçası: aylıq ödəniş rus dili bölməsi üçün 750, ingilis dili bölməsi üçün 800 manatdır.

"Neo Kids" uşaq bağçası: Azərbaycan və rus dili qrupları üçün aylıq ödəniş 700 manat, ingilis dili bölməsi üçün isə 750 manatdır.

"Zümrüd" uşaq bağçası: rus dili qrupu 600, ingilis dili qrupu 700, Azərbaycan dili qrupunun aylıq ödənişi 550 manatdır.

"Şəkər" uşaq bağçası: Azərbaycan, rus və ingilis dili qrupları fəaliyyət göstərir, hər biri üçün aylıq ödəniş 760 manatdır.

"Modern Baby" və "Şəkər bala" uşaq bağçaları: aylıq ödəniş 650-700 manat təşkil edir.

"Göyərçin" uşaq bağçası: rus bölməsi 550, ingilis bölməsi isə 600 manatdır.

"Tumurcuq" uşaq bağçası: saxlanma saatına görə ödəniş 320- 450 manat arasında dəyişir, yəni bütöv gün 450, yarım gün isə 320 manat təşkil edir.

Qeyd edək ki, özəl bağçaların hər birində ödəniş yerləşdiyi rayona, göstərdiyi xidmətə görə dəyişir. Yəni özəl bağçalar arasında sadaladığımızdan aşağı qiymətlər də var, daha yuxarı, hətta ağıla gəlməyən qiymətlər də. Bu isə o deməkdir ki, hər kəs övladını istəsə belə, özəl bağçalara göndərə bilmir. Çünki, əksər bağçalardakı qiymətlər bir aylıq əmək haqqından yüksəkdir və bu hal çoxsaylı valideyni özəl bağça sevdasından kənarlaşdırır.

Hazırda ölkədə əksər valideynin seçimi dövlət uşaq bağçaları olur. Əsasən işləyən valideyn uşaqlarını hökmən bağçaya verməlidir. Əks təqdirdə çalışa bilməz. Qeyd etmək yerinə düşər ki, dövlət uşaq bağçalarına qəbul bir neçə ilə kimi çətinliklə başa gəlirdi. Belə ki, işləyən valideyn uşağını bağçaya yerləşdirə bilmirdi. Yəni bu sahədə bürokratizm var idi. 2020-ci ildən sonra isə qəbulun onlayn həyata keçirilməsi bu bürokratiyanı əngəllədi ki, bu da valideynlərin ürəyincə oldu.

Dövlət uşaq bağçaları müstəqillik illərində müəyyən qədər



abadlaşdırılıb, maddi-texniki vəziyyəti yüksəldilib. Hətta yeni bağçalar da tikilib. Bunlardan 18-i Heydər Əliyev Fondu tərəfindən tikilib. Baxmayaraq ki, ötən ilə qədər bağçalara nəzarət icra hakimiyyətlərinə verilmişdi, lakin onlar tərəfindən nə tikinti, nə də nəzarət səmərəli şəkildə həyata keçirildi.

Əvvəllər bu bağçalara kim gəldi işə qəbul edilirdisə, hazırda yalnız ixtisaslı mütəxəssislər işə qəbul edilir ki, bu da məktəbəqədər təhsilin keyfiyyətini artırmış olur. Dövlət uşaq bağçalarında da uşaqlara rus və ingilis dilləri öyrədilir. Lakin görünən odur ki, özəl bağçalar bu sahədə dövlət uçaq bağçalarını üstələyir. Həmçinin də qidaların keyfiyyəti, bolluğu cəhətdən. Ümumiyyətlə, dövlət və özəl uşaq bağçalarının oxşar və fərqli tərəfləri var. Hətta üstün olan cəhətləri də var.

### Oxşarlıq, yoxsa fərqlilik çoxdur?..

Oxşar cəhətlər yalnız budur ki, uşaqlar bağçaya gedir, orada bir neçə saat ərzində saxlanılır. Bu saatlar ərzində uşağın saxlanması necə təşkil olunur, o, nə öyrənir, nə ilə məşğul olur, gün boyu nəyi əxz edir, bax, dövlət və özəl uşaq bağçalarını bir-birindən məhz bu amillər ayırır. Özəl bağçaların əksəriyyəti yeni tikili olan yaşayış binalarının aşağı mərtəbəsində yerləşir. Onların heç bir kvadratmetr də həyətyanı sahəsi olmur. Lakin dövlət uşaq bağçaları xüsusi layihə ilə tikildiyindən onların həyəti də olur ki, uşaqlar burada qoyulan əyləncə qurğularında əylənir, təmiz hava ala bilirlər. Özəl uşaq bağçaları isə bu üstünlükdən kənardır.

Özəl uşaq bağçalarında yemək menyuları rəngarəngdir. Lakin dövlət uşaq bağçaları bu məsələdə bir qədər geridə qalır. Çünki özəl bağçalara valideyn yüksək məbləğdə ödəniş edir, dövlət uşaq bağçaları isə ödənişsizdir. Məhz bu amil deyilənləri təsdiq edir. Yataq, əyləncə məsələlərinə gəlincə, bu sahədə üstün dövlət uşaq bağçaları da var, özəl bağçalar da. Yəni bu bağçanın müdiriyyəti tərəfindən işin qurulmasından birbaşa asılıdır. Təhsil məsələsinə gəlincə isə hər iki tip bağça təhsil verir. Lakin dillərin öyrədilməsi özəl bağçalarda daha yaxşı təşkil olunur. Çünki özəl bağçalar öz üstünlüyünü bu nəticə ilə qorumağı qarşısına məqsəd qoyur. Lakin burada ən vacib məsələlərdən birinə də toxunmalıyıq ki, özəl bağçaların bəzilərində Azərbaycan dili bölməsi yoxdur. Bu isə o deməkdir ki, gələcəyimiz olan uşaqlar ana dilində mükəmməl danışa bilməyəcək. Dövlət uşaq bağçalarında isə Azərbaycan dili ilə yanaşı, həm rus, həm də ingilis dilləri tədris olunur. Uşaqlar öz dilləri ilə yanaşı, digər dilləri də mənimsəyir.

### Ümumi nəzarət bəhrə verə bilər

Beləliklə, istər dövlət, istər özəl uşaq bağçaları olsun, bir qurumun nəzarəti altında fəaliyyət göstərməsələr, heç vaxt yaxşı nəticə ortaya qoya bilməzlər. Özəl bağçaları sahibkarlar istədiyi kimi idarə edə bilməz. Bu, göründüyü kimi həm qiymətlərin əlçatmaz olması ilə nəticələnir, həm də uşaqların ana dilini öyrənməsindən kənarda qalması ilə.

Həmçinin o da məlumdur ki, özəl uşaq bağçalarına kim gəldi, işə qəbul edilir. Bu da təbii ki, yolverilməzdir. Kimsə ingilis dilini yaxşı bilə bilər. Lakin bunun tədris planı əsasında uşağa öyrədilməsi daha vacib amillərdən biridir. Bağçaların hər biri, dövlət və özəl olmasından asılı olmayaraq məktəbəqədər təhsil bazası əsasında fəaliyyət göstərməlidir. Təbii ki, belə olarsa, o zaman həm dövlət, həm də özəl bağçalarda uşaqların hər biri həm Azərbaycan dilini, həm də digər dilləri eyni səviyyədə mənimsəyə bilər. Biz Azərbaycanda yaşayırıq, bura bizim Vətənimizdir, hər bir vətəndaş isə mükəmməl şəkildə Azərbaycan dilində danışmağa borcludur. Lakin görünən odur ki, bağçalarda bu balans pozulur. Bunun ağrı-acısını isə gələcəkdə çəkən ümumilikdə bu xalq olacaq.

Beləliklə, bu qənaətə gəlmək olur ki, dövlət və özəl olmasından asılı olmayaraq, uşaq bağçalarının layihələndirilməsindən tutmuş işçilərin təhsilinə, uşaqların qidalanmasına, məktəbəqədər təhsilin həyata keçirilməsinə qədər nəzarət vacibdir. Bu isə hazırda nəzarət funksiyanı həyata keçirən Elm və Təhsil Nazirliyinin üzərinə düşür. Deməli, bu qurum uşaqların gələcəyinə cavabdehdir. Belə isə fəaliyyətini elə qurmalıdır ki, ona həvalə edilən işin öhdəsindən gələ bilsin. Yeni təkliflərlə çıxış etmək hər zaman səmərə verib. Əgər olarsa...

**Mətanət Məmmədova**



MƏTLƏB
Metlebsalahov@mail.ru

## "Xristian Klubu" informasiya azadlığına niyə həbs qoyur?

***Avropa İttifaqının başında duranlar daha bir rəzilliyə imza atıblar. "Demokratiya", "insan hüquqları" bağırtısı ilə illərdir qulaqları batıran bu "Xristian klubu", indi də yer üzündə informasiya azadlığına həbs qoyub. Özü də rəzil şəkildə! Deməli belə, sən demə Aİ rəhbərləri onların və fransa Prezidenti Emmanuel Makronun ikili və iyrənc siyasi oyunlarını ifşa edən sosial media və informasiya saytlarını hədəfə almaq üçün plan hazırlayıblar. Aparıcı sosial media rəhbərləri ilə gizli sövdələşmə yaradan qurum rəsmiləri onları tənqidi materiallara və video çarxlara qadağa qoymaq üçün gizli razılaşmaya dəvət ediblər. Onsuz zaman-zaman ən kritik dönəmlərdə obyektivlik, peşəkarlıq əvəzinə qərbdəki siyasi xuliqanların qərəz dolu tapşırıqlarını icra edən qərb mediası üçün belə sövdələşmə adi haldır. Çünki onlar heç zaman obyektiv və qərəzsiz informasiya məhfumu ilə tanış olmayıblar.***

Elə bir neçə il öncə, 44 günlük zəfər müharibəsi zamanı aparıcı Qərb mediasının erməni bombardmanları altında qanına bulanan azərbaycanlı körpələrin ah-naləsini necə görməzlikdən gəldiklərini xatırlatmaq kifayətdir ki, bunların əsl üzünü görəsən. Onlar vicdanlı jurnalistika üçün deyil, peşəkar informasiya killeri olmaq üçün çalışırlar. Aİ rəhbərlərinin bu iyrənc sövdələşmə oyununun bir zərbəsi də Azərbaycan mediasına dəydi. Çünki amerikalı sahibkar, "X" sosial şəbəkəsinin sahibi olan İlon Maskın Avropa Komissiyası ilə digər sosial şəbəkə platformalarının rəhbərləri arasında gizli sövdələşmə olduğu barədə X hesabındakı paylaşımını yaydıqdan sonra artıq qərbdəki siyasətbazların öz siyasi maraqları üçün informasiya almaq azadlığına da əl qoyduqlarını fakt kimi ortaya qoyur.

Avropa İttifaqı rəhbərlərinin heç bir məntiqə sığmayan bu addımı, ilk növbədə, illərdir yalançı şüara çevirdikləri "demokratiya prinsipləri"nə daban-dabana ziddir. Öz siyasi məqsədləri üçün informasiya sektorunu alətə çevirmək, milyonlarla insanın informasiya azadlığını həbs etmək, insan hüquq və azadlıqlarını barbarcasına tapdalamaq görünür bu təşkilat başbilənləri üçün artıq əsas hədəf halını alacaq. Onların bu son addımları qətiyyən heç bir məntiqə sığmır. Bəs illərdir iyrənc şüara çevirdiyiniz, sözünüzə baxmayan müstəqil ölkələrə qarşı əlinizdə qalxana çevirdiyiniz "insan hüquq və azadlıqları başlıca məsələdir" prinsipi harada qaldı?

Sosial şəbəkələrdən, informasiya portallarından başda Fransa olmaqla Avropa İttifaqı rəhbərliyinin ikili standart siyasətini tənqid edən yazıların yoxa çıxardılması, artıq Avropa qitəsindəki siyasi rejimlərin bütün hədləri keçdiyini, heç bir sərhəd tanımadıqlarını ortaya qoyur. Əgər bu gün Avropa İttifaqı 30 ildir Azərbaycan torpaqlarını işğal altında saxlamış mürtəce Ermənistanı yenidən qisas əməliyyatlarına sövq edirsə, qanlı qisas planı və hərbi təxribat üçün 270 milyon avrosundan keçirsə, demək ki, ən iyrənc yollar artıq bunlar üçün məqbul variantdır. Bunlar üçün yırtıcı siyasi maraqlar azadlıq və demokratiyadan çox-çox üstün dayanır. Həqiqi, sivil Avropa əvəzinə xristian ittifaqına çevrildikləri kimi...

# Bölgə gənclərinin sosiallaşma problemi var



***Əslində, bir çoxumuz övladımızın texnologiya əsrində texnoloji alətlərin əsirinə çevrilməsindən narahatıq. İndi tibb bu asılılığın xəstəlik olduğunu da təsdiqləyir. Müasir tibb internetdə keçirilən vaxta nəzarət etmədikdə və bu səbəbdən yaranan patoloji pozğunluqlara səbəb olan asılılığa texnologiya asılılığı xəstəliyi deyir. Texnologiya hər yaşda olan insanlar üçün çox cəlbedici, həyatı artıran bir sahədir və bir çox faydaları var. Ancaq texnoloji alətlərdən həddindən artıq istifadə uşaqlarda, yeniyetmə və gənclərdə texnologiya asılılığına səbəb ola bilər ki, bunun da ən acı nəticələrinin şahidi oluruq.***






Boş zamanı çox olan uşaq və yeniyetmələr yeganə məşğuliyyət növünü texnoloji alətlər hesab edir. Buna görə onların asudə zamanını faydalı keçirməklərinə şərait yaratmaq, alternativ məşğuliyyət imkanları yaratmaq vacibdir. Bu halda iki seçimimiz var - ya ödənişli əsaslarla fəaliyyət göstərən kurslar, ya da məhdud saydakı dövlət hesabına olan yaradıcılıq evləri. Təbii ki ödənişsiz əsaslarla fəaliyyət göstərən kurslara təlabat çoxdur, lakin saylarının az olması, hər bölgədə olmaması bu təlabatı qarşılamır.

Əslində, ölkəmizdə sayı məhdud olsa da, belə kurslar var. Gənclər mərkəzləri, uşaqlar və gənclər üçün yaradıcılıq birlikləri var. Respublikamızın ayrı-ayrı yerlərində fəaliyyət göstərən Gənclər Evləri var. Bir çox rayonda yaradılan, bütün lazımı imkanlara malik olan Gənclər Evləri barədə təəssüf ki, qənaətbəxş nəsə yazmaq olmur, çünki gənclər bu evlərin fəaliyyətinin məhdudluğundan şikayətlənir.

Qeyd edək ki, paytaxtda və regionlarda ümumilikdə 40-dan artıq Gənclər Evi fəaliyyət göstərir. Gənclərin asudə vaxtlarını səmərəli keçirməyə xidmət üçün nəzərdə tutulan bu evlərin çoxu ya tam fəaliyyətsizdir yaxud məhdud fəaliyyət göstərir. Xüsusilə də bölgələrdəki Gənclər Evlərinin qapısının bağlı saxlanması halları var. Bu, "var"la "yox" arası kimi bir şeydir. Bina var, bütün imkanları var, lazımı avadanlıqlarla təmin edilib, lakin fəaliyyətsizlik hökm sürür.

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nın təsdiq olunması barədə qərarı hələ 2026-cı ildə qəbul edib. Sənəddə "Gənclər evi"nin inzibati ərazi vahidlərində əhalinin sayı nəzərə alınmaqla, dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına inşa edilmiş və gənclər siyasətinə aid sahələrdə fəaliyyət göstərən sosial xidmət müəssisəsi olduğu qeyd edilib. Yəni bu evlərdə təklif ediləcək bütün növ fəaliyyət və məşğuliyyət imkanları dövlət hesabına, ödənişsiz olmalıdır.

Qərarda "Gənclər evi" sosial şəbəkəsinin yaradılmasının və maliyyələşdirilməsinin əsasları təsbit edilib. "Gənclər evi" sosial xidmət müəssisəsinin yaradılmasının "Gənclər siyasəti haqqında" qanuna uyğun olaraq, gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların ahəngdar inkişafı və asudə vaxtının təşkili, gənclərə psixoloji reabilitasiya, hüquqi və informasiya yardımlarının göstərilməsi məqsədi daşıdığı bildirilir. Sənəddə, həmçinin "Gənclər evi"nin öz işini Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq edilmiş illik fəaliyyət planına uyğun təşkil etdiyi, onun fəaliyyətinin tənzimlənməsi məqsədilə metodoloji işin müvafiq nazirlik tərəfindən həyata keçirildiyi əksini tapıb.

Nazirlər Kabinetinin qərarında "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin fəaliyyətinə nəzarət mexanizmləri də dəqiq müəyyənləşdirilib. Sənədə əsasən, bu nəzarət nazirlik tərəfindən ildə bir dəfədən az olmayaraq keçirilən monitorinq, habelə "Gənclər evi"nin direktorunun nazirliyə təqdim etdiyi hesabat vasitəsilə təmin olunur. Lakin gənclər üçün yaradılan o imkanlardan bölgələrdə neçə faiz gənc yararlanır, bu müəmmalıdır. Çünki bu evlərə gənclərin girişi, imkanlarından istifadə əlçatan deyil. Bir çox bölgədə Gənclər Evi rayonda hər hansı tədbir zamanı məkana ehtiyac olanda istifadə olunur. Dövlət Gənclər Evlərini ölkənin gəncləri üçün inşa edib, təzədə baxın, gənclər ora buraxılmır, yaxud da məhdud imkanlarından istifadə edə bilirlər. Gənclər evləri kitabxana, kompyuter və idman zalları ilə təmin edilib, lakin bölgədə yaşayan gənclər sosiallaşma üçün çay evində toplaşırlar, qızların heç bu seçimi də yoxdur.

Təklif edərdik ki, uşaqların və gənclərin həm də fiziki inkişafı üçün şərait daha da genişləndirilsin. İdman, üzgüçülüklə və s. bağlı dövlətimiz həm fiziki, həm də mənəvi dəstəyi daha da artırsın. Xüsusilə uşaqların fiziki sağlamlıqlarının inkişafı ilə məşğul olan mərkəzlər daha da əlçatan olsun. Bölgələrdə uşaq və yeniyetmələr üçün ödənişsiz zallar istifadəyə verilsin. Əks halda, texnologiya əsrinin texno-köləsinə çevrilən gələcək nəsilin sağlamlığı şübhə altında olacaq.

***Lalə Mehralı***



MƏTANƏT

## Qoy gözümüzü telefon yox, kitab "kor" etsin

**9 avqust-Beynəlxalq Kitabsevərlər Günüdür. Yenə eyni həyəcan, yeni eyni əndişə ilə soruşuram: kitab oxuyuruqmu? Həmişə olduğu kimi, bu əlamətdar gündə də deyirəm: gəlin, kitab oxuyaq!**

Bəzən kitab oxuduğumuz o illərin unudulmaz günlərini elə həsrətlə xatırlayıram ki... Nə qədər kitab oxuyurduq, İlahi?.. Günlərimiz kitabxanalarda keçirdi. İki gündən, üç gündən bir kitab alıb evə gətirirdik. Bizə hansısa bir iş tapşıran valideynlərimizdən oğurlanıb mütaliə edirdik. Dərsimizi hazırladıqmı, işimiz gizlində-aşkarda, orada-burada ancaq kitab oxumaq olurdu. Kitablar da o qədər maraqlı idi ki, bitirmədən gözümüzə yuxu getmirdi. Dəfələrlə "ay bala, o işığı söndürün, yatın, ta gecdir",-deyən ata-anamıza hər dəfə "yaxşı, indicə söndürürük",-deyərək gecə yarısı kitabı bitirib, sabah yenə kitabxanaya gedir, yeni kitablar alırdıq. Desəm ki, kitabxanalarda oxunmamış kitab qoymamışdıq qala, bəlkə də inanan az olar, lakin bu, həqiqətən də belə idi.

Biz gözümüzü kitabdan ayırmırdıq, indi isə gözlər telefondan ayrılmır. Bizə "ay bala, bu qədər kitab gözlərinizi kor edəcək" deyirdilər, indi isə uşaq, yeniyetmə və gənclərə "ay bala, bu telefonlar gözünüzü kor edəcək" deyirlər. O vaxt əksər adam başı aşağı kitab oxuyurdu, indi haradayıqsa- evdə, küçədə, nəqliyyatda, orada əksəriyyətin başı aşağı, gözü telefondadır. Görəsən günün bu qədər saatını insanlar orada nə axtarır? Axşamadək barmaqlar bir saniyə dincəlmir: axtarır, yazır, pozur... Bircə onu bilirəm ki, barmaqlar nə qədər işləyirsə, beyin bir o qədər yorğun düşür. Lakin kitab oxuyarkən beyin dincəlir, zehin açılır.

Hər dəfə metroda başı aşağı, gözü telefonda olan bütün yaş qruplarından insanları müşahidə edərkən başı aşağı kitab oxuduğumuz o illəri xatırlayıram. Öz-özlüyümdə xeyli müqayisə aparıram. O vaxtlar elə bu metroda da kitab oxuyanlar çox idi. Nə oldu görəsən, niyə kitablar qatlanıb bir kənara atıldı, telefonların güdazına getdi? Bir andaca kitabların o möhtəşəm ətri gəlir burnuma. Harada qaldığımızı bəlli etmək üçün qatladığımız səhifələr... Saxlanc yerimiz olan səhifələr... Orada saxladığımız şəkillər, quruyub səhifələrin arasında özünə yer edən xatirə dolu güllər... Bəlkə indi də hansısa kitabxanada kitabların arasındaca qalır onlar. Kitabxanalarda digər "yaşayanlar" kimi.

Artıq insanlar uzun illərdir, kitabxanalardan ayağını kəsib. Çünki telefon kitabxananın yolunu kəsib, kitabların ətrini özünə çəkib. İndi kitab, müəllif, kitabxana yalnız belə əlamətdar günlərdə, həftələrdə anılır. Onu da xatırlayan olarsa...

Görəsən niyə kitabları telefonlara dəyişdik? Telefonlar məgər o kitablar kimi saxlanc yeri ola biləcəkmi? Yəni içindəki minlərlə şəkli, xatirələri əbədi saxlaya biləcəkmi? Yoxsa bir an internet itərsə, şəkillər də, xatirələr də itəcəkdir. Ən əsası isə görəsən kitabların insana verdiklərini 100 il bundan sonra telefonlar verə bilərmi?

Kitabları telefona, sosial şəbəkələrə dəyişmişik. Tiktok bizim üçün kitablardan dəfələrlə sevimli olub indi. Əxlaqi dəyərləri aşılayan kitablar onu əlimizdən alan Tiktokun kölgəsində qalıb. Bizi qalmaqaldan uzaqlaşdıran, özü ilə baş-başa saxlayıb bütün dünyanı gəzdirən, yaxşını-pisi ayırd etməyi öyrədən kitabları indi qeybət yeri olan Votsapla, İnstagramla dəyişmişik. Kitab oxumaq əvəzinə, qalmışıq Votsapda, bir-birimizə geyimimizi, acdığımız süfrələri, gəzdiyimiz yerləri göstəririk. İnstagramda özünü reklam edən kosmetoloq "həkimlərin" Allah-təalanın verdiyi əzaları dəyişməsini, Yaradana qarşı çıxmasını izləyir və alqışlayırıq. Biz də dəyişmək istəyirik. Necə ki, kitabı telefona dəyişmişik...

Gəlin, dəyişməyək kitabı heç nəyə. Kitab oxuyaq! Qoy gözümüzü telefon yox, kitab "kor" etsin.

# Türkiyənin "Polad günbəz"i



Türk hərbi mühəndisləri yeni "Polad Günbəz" hava hücumundan müdafiə sistemi üzərində işləyirlər. Bu barədə Türkiyənin "En Son Haber" saytı yazıb. O, dövlətin hərtərəfli müdafiəsini və bütün hava hücumundan müdafiə sistemlərinin vahid mexanizmə inteqrasiyasını təmin edəcək. Lakin saytın oxucuları bu fikrə müəyyən şübhə ilə yanaşıblar. Ankarada keçirilən müdafiə sənayesi icraiyyə komitəsinin iclasında yerli və milli hava hücumundan müdafiə sistemlərinin, bütün sensorlar və silahların vahid şəbəkə strukturu daxilində inteqrasiya olunmuş fəaliyyətini təmin edəcək "Polad Günbəz" sisteminin tətbiqi qərara alınıb.

Türkiyə müdafiə sənayesi son 20 ilin tendensiyalarını dəyişmədən böyüməyə və inkişaf etməyə davam edir. Bu artımın ardıcıl və sistemli şəkildə baş verməsi üçün addımlar atılır. Ötən gün Ankaradakı prezident sarayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə müdafiə sənayesi icraiyyə komitəsinin iclası keçirilib. Mətbuata qapalı keçirilən görüş təxminən 2,5 saat davam edib.

Bu layihə müxtəlif səviyyələrdə hava hücumundan müdafiə sistemlərinin, eləcə də bütün sensorlar və silahların vahid şəbəkə strukturu daxilində inteqrasiya olunmuş fəaliyyətini təmin edir. Sistem hava məkanının ümumi mənzərəsini yaratmağı, bu məlumatı real vaxt rejimində əməliyyat mərkəzlərinə ötürməyi və süni intellekt tərəfindən dəstəklənən qərar qəbul edən şəxslərə təqdim etməyi nəzərdə tutur. Layihənin yerli və milli imkanların köməyi ilə inkişaf etdirilməsi Türkiyənin müdafiə sənayesində müstəqilliyini gücləndirir. ASELSAN tərəfindən hazırlanan sistem tam hazır olub xidmətə girdikdə, milli "Polad günbəz" demək olar ki, istənilən yüksəklikdə Türkiyə hava məkanına daxil olan və hətta daxil ola biləcək bütün təhlükələri aradan qaldıra biləcək.

Yılmaz qeyd edib: "Bu gün müdafiə sənayesi icraiyyə komitəsi bir çox mühüm layihələrə əlavə olaraq, hava hücumundan müdafiə sistemlərimizin müxtəlif səviyyələrdə, bütün sensorlarımız və silahlarımızın inteqrasiyalı işləməsini təmin edən "Polad Günbəz" layihəsini müzakirə edib qərara aldı. vahid şəbəkə quruluşu, hava məkanının ümumi şəkillərinin formalaşması, əməliyyat mərkəzlərinə real vaxtda ötürülür və qərar qəbul edənlərə təqdim edilir, süni intellekt tərəfindən dəstəklənir "Bu tarixi qərara görə təbrik edirik".

**AYSEL**

# Qazaxda hansı tarixi abidələrimiz var və necə qorunur?



## AYDINLIQ GƏTİRİLDİ

"Bölgədə olan tarix və mədəniyyət abidələri bu ərazilərdə xalqımızın minilliklər boyu yaşadığını sübut edir. Bu mədəniyyət nümunələri tariximizin daşlaşmış yadigarları olaraq xalqın tarixini, təfəkkürünü, yaşam tərzini keçmişdən bu günə, bu günümüzdən gələcəyə ötürür". Bu sözləri SİA-ya açıqlamasında "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu, Abidə mühafizəçisi Leyla Omarova deyib.

O bildirib ki, Qazax rayonunda qeydiyyata alınmış 112 tarixi abidə var: "Bunlardan 3-ü dünya əhəmiyyətli abidələrdir - Sınıq körpü, Baba Dərviş yaşayış məskəni, Damcılı mağara düşərgəsi. Sınıq körpü Qazax rayonunda Gürcüstan Respublikası ilə sərhəddə olan və Xram çayı üzərindən keçən çoxaşırımlı körpüdür. Azərbaycanın orta əsrə aid olan nadir memarlıq incilərindən biridir. Körpünün tikintisi zamanı istifadə edilmiş daşın rənginə görə ona Qırmızı körpü də deyilir. Sınıq körpü XII əsr Azərbaycan memarları tərəfindən salınmışdır. Körpünün uzunluğu 175 metrdir və 4 aşırımdan ibarətdir. 2019-cu ildə Azərbaycan Respublikası tərəfindən körpüdə təmir-bərpa işləri aparılmışdır.

Qazax rayonunda yerləşən digər dünya əhəmiyyətli abidə Baba-Dərviş qədim yaşayış məskənidir. Bölgənin uzaq tarixinə işıq salan yaşayış məskəni Xanlıqlar kəndi yaxınlığında yerləşir. Yaşayış yerində 1958-1962-ci və 1966-cı illərdə arxeoloji qazıntılar aparılmış, müxtəlif tarixi dövrlərə aid maraqlı tapıntılar əldə olunmuşdur. Baba Dərviş qədim yaşayış yeri sıralı düzülmüş 5 təpədən ibarətdir. Aparılan araşdırmalar nəticəsində toplanan arxeoloji materiallar göstərmişdir ki, bu məskən hələ eramızdan əvvəl III minilliyin başlanğıcında mövcud olmuşdur.

Qədimliyi və unikal görünüşü ilə seçilən dünya əhəmiyyətli abidələrdən biri "Damcılı mağara düşərgəsi" Qazax rayonu və Azərbaycan ərazisində yerləşən ən qədim tarixi olan abidələrdən biridir. "Damcılı mağara düşərgəsi" Qazax rayonunda fəaliyyət göstərən "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşir. Arxeoloji abidədir. Tarixi paleolit dövrünə aiddir. Yarımdairəvi formada olan mağaranın qarşı tərəfdən hündürlüyü 4 metr, sahəsi 360 kvadratmetrdir. Mağaranın qabaq hissəsi açıqdır. Əhəng qayalığının altındadır. Təbii çatlardan süzülən su damcılarına görə Damcılı mağarası adlanır".

"Bu ərazidə ilk dəfə 1953-1957-ci illərdə arxeoloq M.M.Hüseynovun tərəfindən arxeoloji qazıntılar aparılmış, Avey dağında daş dövrünə aid olan qədim insanların yaşadıqları 30-a yaxın mağara aşkar edilmiş, iki minə yaxın alət tapılmışdır. Eyni zamanda mağarada əldə edilən əmək alətləri öz forma və hazırlanma texnikasına görə aşağı paleolitə (mustye), yuxarı paleolitə və neolitə aid edilir. Bu əmək alətləri-itiuclu alətlər, qaşovlar, qəlpələr, kəsərlər, bizlər, gəzli və uclu qaşovlar və s.

60 ildən sonra bu ərazilərdə arxeoloji qazıntılara yenidən başlanılmışdır. Belə ki, 2015-ci ilin yayında, Damcılı mağarası və mağara düşərgəsinin ətrafında dünya əhəmiyyətli arxeoloji irsi kompleks tədqiq etmək üçün 3 tərəfli beynəlxalq memorandum imzalanmışdı. Bu memorandum Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu, AMEA tərəfindən Arxeologiya və Etnoqrafiya İnsitutu,Yaponiya tərəfindən Yaponiyanın Tokio Universiteti Universitet Muzeyi arasında bağlanmışdı. Qazıntı işləri aparılarkən orta əsrlərə, tunc dövrünün sonuna aid, daha dərində isə neolit dövrü qalıqları, ocaq yerləri, fauna nümunələri (sümüklər), təxminən yarım metr dərində lal təbəqədən aşağıda isə orta paleolit dövrünün son mərhələsini əks etdirən qəlpə, nüvə tullantıları və alət nümunələri əldə olunmuşdur. Damcılıda tapılan maddi-mədəniyyət nümunələrinin dövrlərini müəyyənləşməsi üçün Yaponiya laboratoriyalarına göndərilmişdir. Beynəlxalq ekspedisiyanın məqsədi ərazinin qədim insan məskəni olduğunu bir daha təsdiqləmək, bundan başqa neolitdən əvvəlki dövrlərə aid maddi sübutlar əldə etməkdir və aparılan qazıntılar nəticəsində də buna nail olunmuşdur. Tapılan alətlərin müxtəlif dövrlərə aid olması göstərir ki, paleolit dövründən bu günə qədər burada uzun müddət arası kəsilmədən yaşayış məskəni olmuşdur. Bu ərazilərdə qədim insanların məskən salmalarının əsas məqsədi su ehtiyatının və qida üçün münbit şəraitin olmasıdır" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**



Elçin Bayramlı

# LGBT Olimpiadası: Parisdən dünyaya satanizm təbliğatı

Olimpiada bəşəriyyətin ən böyük idman bayramıdır. Daha doğrusu, bu yaxınlaradək hamı elə görürdü. Lakin 2024 Paris Olimpiadası artıq bu görüşü darmadağın etdi və bəşəriyyət gördü ki, bu beynəlxalq yarışlar artıq normal insani dəyərləri yox, qeyri-insani pozğun "dəyərlər"i təbliğ edir. Əslində, bəzi qlobal dairələr tərəfindən aparılan bu siyasət yeni deyil və onillərdir ki, dünyada satanizm elementlərini, cinsiz azlıqların təbliğatını, mənəvi dəyərlərə, dinlərə, ailə institutuna qarşı təcavüzü davam etdirirlər və əhəmiyyətli nəticələr də əldə ediblər. Bu istiqamətdə dünya üzrə keçirilən bəzi festifallardan, televiziyalardan, internetdən, kino sənayesindən, məşhurlardan necə lazımdır istifadə edilir. Avroviziya mahnı yarışması kimi festifallar sırf LGBT təbliğatına xidmət edir və dünyada gəncləri psixtron terrora məruz qoyur. Lakin Olimpiada kimi nəhəng dünya yarışlarında açıq aydın şəkildə satanizm və LGBT təbliğatı göstərir ki, artıq bu təbliğatı ən yüksək beynəlxalq miqyasa çıxarıblar.

Paris Olimpiadasının açılışındakı biabırçılıqlar bütün dünya mediasında sərt tənqid olundu, sosial şəbəkələrdə etirazla qarşılandı. Təsəvvür edin ki, xristian dünyasının mərkəzində, Avropanın ortasında xristian dini və bütün xristianlar, o cümlədən bu dinin peyğəmbəri belə açıq təhqir olundu, Bibliyadakı mövzular biabırçı formada, əxlaqsız şəkildə təqdim edildi. Lakin buna qarşı ciddi bir etiraz aksiyaları təşkil olunmadı. Üstündən xeyli keçəndən sonra Vatikan yuxudan ayıldı və möhtərəm Papa həzrətləri bir neçə cümlə tənqiddə buluna bildi.

Yarışların gedişi isə aləmi bir-birinə qatdı- kimin kişi, kimin qadın olduğuunu aydınlaşdırmaq mümkün olmadı. Bu əvvəl qadın olub, indi kişidir, bu əvvəl kişi olub indi qadındır söhbətləri insan cəmiyyətinin necə rəzil bir vəziyyətə salındığını açıq göstərdi. Transgenderləri və bu kimi fizioloji, psixoloji cəhətdən defekt adamları qəhrəman kimi dünyaya sırımaqda davam edirlər.

Artıq təbiətən mövcud olan 2 cinsə əndrabadi adlarla yeni "cinslər" də əlavə etməyə girişiblər. Halbuki, bu nə elmi cəhətdən, nə dini cəhətdən, nə bioloji cəhətdən, nə psixoloji cəhətdən mümkün deyil. Bioloji olaraq 2 cins var vəssalam- bundan kənardakı formalar sadəcə anomaliyadır- ya anormal doğulmuş xəstə adamlar kimi müalicə olunmalıdır, ya da bu mümkün deyilsə bu xəstəliklə öz həyatlarını yaşamalıdırlar. Lakin bunu təbliğ edib adiləşdirmək və gənclərdə buna meyil yaratmaq bəşəriyyətə qarşı açıq şeytani terror aktıdır.

Qlobal transhumanistlər bəşəriyyətlə bağlı qorxunc planlarını heç gizlətmirlər də. Yeni dünya nizamı dedikləri şeytani sistemi qurub "yeni insan" dedikləri idarəolunan biorobiot zombi məxluq sürüsü yaratmaq planlarını ardıcıl surətdə həyata keçirirlər. Bunun üçün 2 istiqamətdə- fiziki-bioloji və mənəvi-psixoloji tərəflərdən zəmin hazırlanır.

Fiziki-bioloji terror əsasən süni və GMO qida məhsulları, dərman və vaksinlərlə, tibb elminin köməyi ilə, mənəvi-psixoloji terror isə mənəvi dəyərləri sarsıdıb yerinə saxta və şeytani dəyərləri oturtmaqla həyata keçirilir.

Dünyanın demək olar ki, bütün iqtisadi, elmi-texnoloji sərvətlərini, kütləvi təbliğat vasitələrini, peşəkar mütəxəssislər ordusunu əlində cəmləmiş bu qüvvə bütün planları heç gizlətmədən açıq və rəsmi şəkildə davam etdirir.

Normal insan cəmiyyətinin yerinə "dünya hökuməti"nə tabe olan və ordan verilmiş proqramla idarə olunan zombi kütləsi yaradılır. Belə bir bəşəriyyəti idarə etmək asan olur. Amma mənəvi dəyərlərə, ənənələrə sadiq insanları idarə etmək olmur, onlar heç cür "qlobal şeytani hökumət"ə tabe olmaq istəmirlər. Bu səbəbdən son onilliklərdə kütləri psixtron terrora məruz qoyma və mənəvi deqradasiyaya uğratma proqramlarının həyata keçirilməsi gücləndirilib. Bu proqramların maliyyələşməsinə qlobal fondlardan yüz milyardlarla dollar vəsait ayrılır.

Bütün mənəvi dəyərlərin gözümüzün qabağında dağıdıldığı, yerinə qoyulan "dəyərlər"in isə insanlığı məhvə apardığı artıq bütün ağıllı adamlara aydındır. Lakin düşünə bilən ağıllı adamların həddən artıq az olduğunu da bilməmək mümkün deyil. Və bu azlıq çoxluğa qarşı mübarizədə uduzmağa məhkumdur. Qərarı kütlə, çoxluq verir, azlıq da çoxluğun qərarını dəyişmək gücündə deyil. Əgər bu qlobal prosesin qarşısını almaq üçün heç kim heç nə etmək istəmirsə, deməli, bu dəhşətli gələcəyin yaradılması bizim arzumuzdur. Arzu nədirsə gec-tez həyata keçməlidir. Nə əkiriksə, onu da biçəcəyik.

# “Qoca qitə”nin Azərbaycan qazına böyük ehtiyacı var

***Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin neft strategiyasını uğurla davam etdirməklə yanaşı, onu həm də günün tələbləri baxımından inkişaf etdirdi. Dünya artıq Azərbaycanı qaz ixrac edən ölkə kimi də tanıyır. Xüsusilə təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan ”Cənub qaz dəhlizi” göstərdi ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi ölkə necə qlobal layihələri gerçəkləşdirməyə qadirdir. Azərbaycan zəngin təbii sərvətlərə malik ölkədir. Avropa ilə Asiyanın ortaq qapısı olan Azərbaycan, əlverişli təbii-coğrafi şəraiti və zən-gin təbii sərvətləri ilə daim diqqət mərkəzində olmuşdur.***



Azərbaycan müxtəlif növ təbii ehtiyatlarla zəngin olsa da, hazırda ən mühümü neft-qaz ehtiyatları hesab edilir. Azərbaycan ərazisi dünyanın ən qədim neft çıxarılan bölgələrindən biridir. Zəngin neft və qaz yataqları olan bu torpaqlarda gedən bir çox savaşların da kökündə həmin amil dayanmışdır. Azərbaycan ərazisi 2/3 hissəsi neft və qaz yataqları ilə də zəngindir. Belə ki, son dövrdə iki böyük neft yatağının (”Şahdəniz” və ”Ümid”) kəşf olunmuşdur. ”Şahdəniz ” platformasında 4 istismar quyu qazılmış və onlardan biri fəaliyyət göstərir. Ən çox neft və qaz yataqları Abşeron yarımadasında, Xəzər dənizinin şelf zonasında, Bakı və Abşeron arxipelaqlarındadır. Bundan başqa, cənub-şərqi Şirvan, Mərkəzi Aran, Qobustan, Ceyrançöl, Acınohur, Siyəzən zonası da neftlə zəngindir. Ölkənin yanar faydalı qazıntıları neft, qaz, şist, torf və başqalarıdır. Bunlardan neft və qaz sənaye əhəmiyyətlidir. Neft həm qurudakı yataqlardan, həm də Xəzər dənizi yataqlarından çıxarılır. Respublikada çıxarılan yanar qazlar karbohidrogen tərkiblidir. Onlar neftin tərkibində həll olmuş, sərbəst, xalis qaz halında olur. Son 30-50 il ərzində çoxlu qaz-kondensant yatağı kəşf olunub, istifadəyə verilmişdir. Azərbaycan Respublikasında hazırda 8 neftli-qazlı (Abşeron, Şamaxı-Qobustan, Aşağı Kür, Bakı arxipelaqı, Gəncə, Yevlax-Ağcabədi, Quba-Xəzəryanı, Kür-Qabırrı çaylararsı) və 2 perspektivli (Acınohur və Cəlilabad) rayon ayrılır. Ən böyük neft-qaz-kondensant yataqları Abşeron, Bakı arxipelaqları və Aşağı Küryanı rayonlarındadır.








Ötən payız TAP həm də Dubayda keçirilən ”Gas tech Awards-2021” mərasimində ”İlin təbii qaz, LNG və ya hidrogen layihəsi” kateqoriyasında qalib elan olunub. Hər il keçirilən qlobal ”Gastech” konfransı ərəfəsində təşkil edilən ”Gastech Awards” mükafatları şirkətlərin və təşkilatların təbii qaz sektorundakı üstün nailiyyətlərinə görə verilir.

TAP ”Cənub qaz dəhlizi” layihəsinin ayrılmaz hissəsi, dörd seqmentinin sonuncusudur. 3500 kilometrlik bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorundakı ”Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri),

TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir. Qeyd edək ki, Gürcüstan və Türkiyə CQBK və BTƏ (Bakı-Tbilisi- Ərzurum) xətləri ilə 15 ildən çoxdur ki, Azərbaycan qazı alırlar.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyuldu. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-ın, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak etdilər. Tədbirdə bildirildi ki, 2020-ci ildən başlayaraq Azərbaycan qazının Avropaya nəqli nəzərdə tutulur. Ona görə də qarşıda qazı Avropa bazarına vaxtında çatdırmaq, tranzit və istehlakçı ölkələrin hər birinin iqtisadi maraqlarının təmin edilməsinə nail olmaq kimi əsas vəzifə dayanır.

Zaman bu vəzifələrin layiqincə yerinə yetirildiyini göstərdi. Layihənin uğurla tamamlanmasında Azərbaycanın rolu şəksizdir. Bu işdə ”Cənub qaz dəhlizi” Məşvərət Şurasının 2015-ci ildən başlayaraq ildə bir dəfə Bakıda keçirilən iclasları mühüm əhəmiyyət daşıyıb.

Trans-Adriatik Qaz Boru Kəmərinin fəaliyyətə başlaması region üçün böyük əhəmiyyət kəsb edən hadisədir. Çünki bu kəmər enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və mənbələrin şaxələndirilməsinə ciddi dəstək verir. O, eyni zamanda regionda əməkdaşlıq körpülərini möhkəmləndirir, yüksək gəlirlər, firavanlıq, xeyir-bərəkət gətirir. Ölkəmizdən Avropa bazarlarına ildə 10 milyard kubmetr qaz tədarükünü həyata keçirmək üçün nəzərdə tutulan bu kəmər indi öz uğur salnaməsinin ilk səhifələrinə imza atır.

Təsadüfi deyil ki, TAP az qala bütün dünyanın diqqət mərkəzindədir. Coğrafiyanı genişləndirmək üçün potensial da mövcuddur. Lakin qaz bazarı neft bazarından onunla fərqlənir ki, burada müqavilələr əvvəlcədən bağlanmalıdır. Dövlət başçısı İspaniyanın ”El Pais” qəzetinə vediyi müsahibədə bu barədə demişdir: ”Hazırda ixrac etdiyimiz qaz həcmlərinə dair müqavilələr boru kəmərinin istifadəyə verilməsindən öncə bağlanıb. Qaz sahəsində biznes bu şəkildə aparılır. Beləliklə, hasilatı artırmaq və ya Avropa İttifaqının yeni üzvləri ilə əməkdaşlığı planlaşdırmaq üçün praktiki səviyyədə danışıqlar aparılmalı, həmin bazarın potensialı və Avropada qaz infrastrukturu sistemlərinin bağlılığı qiymətləndirilməlidir. Bilirəm ki, hazırda Avropada yeni bağlantılar üzərində iş gedir. Yəni bunu planlaşdırmaq lazımdır, çünki bizim qazımız uzunmüddətli müqavilələr əsasında satılır və biz müqavilələri 100 faiz yerinə yetiririk. Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır və əlbəttə, bu mövzu daim bizim gündəlikdədir. Mənim qiymətləndirməm ondan ibarətdir ki, bizim nəhəng təbii qaz ehtiyatımız var. Biz Avropaya təbii qazın ənənəvi təchizat marşrutlarından daha qısa marşruta malikik və bizim mənbə Avropa bazarı üçün yenidir”.

TAP ”Şahdəniz-2” qazını Yunanıstanın və Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçirərək İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər ”Snam Rete Gas” şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Sistem keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir.

Yeni qaz yataqları isə heç də hər gün kəşf olunmur. Həmçinin köhnə yataqlar, ehtiyatları hasil olunduqca gücdən düşür. Bax belə bir zamanda Azərbaycan qazı daha mühüm əhəmiyyət kəsb edir. Brüsseldə ispaniyalı jurnalistin suallarını cavablandırarkən Prezidentimiz qeyd etmişdir ki, bu gün bizim qazımız Türkiyənin ehtiyacının 20 faizini və Gürcüstanın ehtiyacının təqribən 90 faizini ödəyir. Qazımız artıq Avropaya nəql edildiyindən biz Avropa İttifaqının bəzi üzv ölkələrinin ehtiyaclarının əhəmiyyətli hissəsini təmin edəcəyik: ”Siz artıq qeyd etdiniz, Avropa İttifaqı və Avropa İttifaqına üzv olmayan bəzi ölkələrdə hasilatın səviyyəsi azalır və hamımız bilirik ki, bəzi dövlətlərin enerji strategiyasına dair qərarlarından irəli gələrək Avropanın təbii qaza ehtiyacı artacaq. Azərbaycan Avropanın etibarlı tərəfdaşı və dostudur.

***A. Cəbrayılova***

# Afrikadakı kimin kəşfiyyatıdır?

## Burkina Faso Mali və Nigerdən sonra Ukrayna ilə əlaqələri kəsəcək




Mali və Niger Afrikadakı silahlı qruplara dəstək verdiyi üçün Ukrayna ilə diplomatik əlaqələri kəsib. Digər ölkələr, məsələn Burkina Faso da onlardan nümunə götürə bilər, Norveç Beynəlxalq Münasibətlər İnstitutunun eksperti Boos NRK-ya müsahibəsində deyib. İyulun sonunda Vaqner qrupunun rus döyüşçüləri böyük problemlər yaşadılar. Dörd il əvvəl ölkədə hakimiyyəti ələ keçirən Mali ordusu ilə birlikdə ölkənin şimalında üsyançılara qarşı döyüşüblər. Bununla belə, onlar iyulun 27-də məğlub oldular. "Əl-Qaidə"yə yaxın olan "Camaah Nusrat ul-İslam və al-Muslimeen" cihadçı qruplaşmasının tuareg üsyançıları qələbəni elan ediblər. Eyni zamanda 80-ə yaxın Vaqner əsgəri ölə, daha 15-i əsir düşə bilərdi. "Vaqnerin döyüşdə 80-ə qədər əsgər itirdiyi doğrudursa, bu, qrupun Afrika qitəsində indiyə qədərki ən böyük məğlubiyyəti olacaq" deyə Weiss yazır. Lakin bu, həmin döyüşdə yeganə əlamətdar məqam deyil.

### Üsyançılara xarici dəstəyin tanınması

Tezliklə internetdə Tuareg milislərinin Vaqner əsgərləri və Mali ordusu ilə döyüşməsinin fotosu yayılıb. Əllərində iki bayraq var. Onlardan biri də Malinin şimalında tanınmamış Azawad əyalətinin bayrağıdır. İkincisi Ukraynadır. Foto hətta "Kyiv Post" qəzetində Ukrayna hərbi kəşfiyyatının nümayəndəsi Andrey Yusovun sitatı ilə birlikdə dərc olunub. "Üsyançılar Rusiya hərbçilərinə qarşı uğurlu hərbi əməliyyat keçirməyə imkan verən lazımi məlumatları alıblar", - Yusov bildirib. Bəzi mənbələr hətta Ukrayna əsgərlərinin hadisə yerində olduğunu və birbaşa Afrika səhrasında döyüşdüyünü iddia edib.

Yevgeni Priqojinin rəhbərlik etdiyi "Vaqner" əsgərləri bir sıra Afrika ölkələrində, o cümlədən Mali, Sudan, Mozambik, həmçinin Suriya və Liviyada əməliyyat keçirib. Onlar Ukrayna münaqişəsində də iştirak ediblər, lakin ötən yay yüksək hərbi komandanlığa qarşı üsyan ediblər. Bir müddət sonra Priqojin təyyarə qəzasında ölüb. Ancaq bundan əvvəl o, Qərbi Afrikaya səyahət etdi. Nəticədə, Vaqner döyüşçüləri bossun ölümündən sonra da bu bölgədə fəaliyyətlərini davam etdirdilər. Yeni şayiələr doğrudurmu? Ukrayna üsyançılara, islamçı yaraqlılara və Əl-Qaidə ilə əlaqəli olanlara hərbi dəstək veribmi? Rusiya ilə münaqişə Ukraynanın hüdudlarından kənara çıxıb, Qərbi Afrika səhralarına çatıbmı?

Çox çəkmədi ki, BBC fakt yoxlayıcıları fotonun retuş edildiyini müəyyən etdilər. "BBC mütəxəssisləri müəyyən ediblər ki, bu görüntü iyun ayında X-də (keçmiş Twitter) yayımlanan videodan götürülüb, burada Ukrayna bayrağı yoxdur, yalnız Azawad bayrağı var". Norveç Beynəlxalq Münasibətlər İnstitutunun baş elmi işçisi Morten B?os təəccüblənmir. O, hesab edir ki, Ukrayna əsgərləri heç vaxt aşkar edilmədən Maliyə girə bilməzdilər. Bundan əlavə, Ukrayna kəşfiyyatının üsyançılar üçün faydalı ola biləcək hər hansı məlumatı yoxdur. "Ukraynalıların sadəcə olaraq belə bir kəşfiyyatı yoxdur", Boos bildirib.

O qeyd edib ki, hətta keçmiş müstəmləkələrində uzun müddət mövcudluğu olan tarixi metropol olan Fransa belə bölgədə kəşfiyyat məlumatları toplamaqda xeyli çətinlik çəkib. Boosun fikrincə, Ukrayna kəşfiyyatı sosial şəbəkələrin strateji istifadəsi ilə oynayaraq "mənəvi yüksəltmək" naminə bu nailiyyətlərə görə kredit götürə bilər. "Bəlkə də ideya mübarizənizdə tək olmadığınızı göstərmək idi. Və digər ölkələr də dünyanın başqa yerlərində Vaqnerlə mübarizə aparır", - Boos deyir. Nə olursa olsun, əks nəticə verdi.

Ukrayna hərbi kəşfiyyatından Andrey Yusovun açıqlamaları Mali hakimiyyətinin ürəyincə olmayıb. Bazar ertəsi X-ə verdiyi açıqlamada, onlar Ukraynanın davranışından "şok" olduqlarını söylədilər. "Yusov Ukraynanın silahlı terrorçuların qorxaq, xain və vəhşi hücumunda iştirakını etiraf edib", - bəyanatda deyilir. Ukraynanın hərəkətləri "açıq təcavüz" adlanır və Mali bunu kəskin şəkildə pisləyir. Bundan əlavə, ölkə hakimiyyəti Rusiyanın uzun müddətdir ki, Ukraynanın neonasist rejimi tərəfindən idarə olunması ilə bağlı iddiasını dəstəkləyib.

Bundan sonra onlar Ukrayna ilə bütün diplomatik əlaqələri rəsmən və dərhal kəsdiklərini bəyan ediblər. Çərşənbə axşamı qonşu Niger də eyni addımı atıb. Ukrayna Nigerin qərarını şərh etməyib. Lakin Kiyev hesab edir ki, Mali "tələsik" hərəkət edib. "Təəssüf ki, Mali hakimiyyəti Malinin şimalında baş verən insidentin faktları və şəraiti ilə bağlı hərtərəfli araşdırma aparmadan və Ukraynanın iştirakına dair heç bir sübut təqdim etmədən Ukrayna ilə diplomatik münasibətləri kəsmək qərarına gəlib", - Ukrayna Xarici İşlər Nazirliyinin saytında bildirilir. Bu, hərbi kəşfiyyat nümayəndəsi Andrey Yusovun açıqlamaları ilə ziddiyyət təşkil edir. Boos hesab edir ki, bu, Ukraynanın xarici siyasətinin əsasən improvizə olduğuna əmin bir işarədir. Onun sözlərinə görə, Kiyevin hərəkətlərinin vahid strategiyaya uyğun olduğuna əminlik yoxdur. Baş tədqiqatçı hesab edir ki, hazırda onlar mümkün nəticələrdən narahat ola bilərlər.

"Ən çox qorxduqları nümunənin yoluxucu olmasıdır" deyir. Mali və qonşu Burkina Faso və Niger hərbi xuntalar tərəfindən idarə olunur. İyulda onlar daha sıx əməkdaşlıq haqqında razılığa gəliblər. Morten Boos hesab edir ki, çox güman ki, Burkina Faso və Niger də Rusiya ilə münaqişəsində beynəlxalq dəstək qazanmağa can atan Ukrayna ilə əlaqələri kəsmək üçün Malini izləyəcək. "O zaman ola bilsin ki, regionun digər ölkələri də onlardan nümunə götürəcək. Bu, Ukrayna üçün hadisələrin çox uğursuz dönüşü olacaq", - baş elmi işçi yekunlaşdırıb.

***V.VƏLİYEV***

# ""Böyük Qayıdış"ın arealı və miqyası daha da genişlənəcək"








**"Ölkəmizin yaratdığı yeni tarixi reallıqların ən əsas komponentlərindən biri də azad olunmuş ərazilərimizə "Böyük Qayıdış"ı təmin etməkdir". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Hikmət Babaoğlu deyib.**

Onun sözlərinə görə, bu gün "Böyük Qayıdış" və onun başa çatdırılması milli vəzifələrimiz sırasında prioritet istiqamətlərdən biridir. Qeyd etmək lazımdır ki, bu işi biz uğurla davam etdiririk və biz az qala hər gün mediada işğaldan azad olunmuş ərazilərimizə - Laçına, Zəngilana, Şuşaya, Xocalıya və digər ərazilərimizə vətəndaşlarımızın qayıtması ilə bağlı xəbərlər görürük. Amma şübhəsiz ki, bu sadəcə xəbərlər deyil, bu hadisə həmçinin qayıdan hər bir ailənin təhlükəsizliyinin təminatı, məşğulluğunun təmin olunması, yaşam şərtlərinin formalaşdırılması, infrastukturun təmin olunması hadisəsidir. Yəni, bu böyük hadisəni görmədən, şübhəsiz ki, hər hansısa bir ailəni sadəcə işğaldan azad olunmuş əraziyə aparıb məskunlaşdırmaq olmaz. Ona görə də, "Böyük Qayıdış"ın belə özü kimi də böyük, strateji və mənəvi tərəfləri var. Azərbaycan bütün bunların öhdəsindən layiqincə gəlməyi bacarır və bu prosesdə sadəcə dost və qardaş ölkələrin simvolik yardımından başqa Azərbaycan heç bir xarici mənbədən, heç bir donor təşkilatdan və yaxud hansısa bir bankdan, heç bir maliyyə vəsaiti almadan bunu öz büdcəsi hesabına edir. Düşünürəm ki, bu da məsələnin ikinci tarixi tərəfidir".

H.Babaoğlu əlavə edib ki, adətən müharibədən çıxmış ölkələr müharibəyə məruz qalmış ərazilərdə iqtisadiyyatın bərpası, demoqrafik problemlərin həlli, infrastruktur layihələrinin həyata keçirilməsi üçün müxtəlif təşkilatlardan kreditlər, maliyyə güzəştləri əldə etməklə bu işləri görür. Azərbaycan isə bütün bunları öz büdcəsi hesabına həyata keçirir. Düşünürəm ki, biz artıq "Böyük Qayıdış"ın ikinci mərhələsinə qədəm qoymaqdayıq, çünki ilin sonuna qədər hələ məskunlaşdırılma aparılmamış bir sıra rayonlarımızda da məskunlaşdırılma aparılacaqdır. Beləliklə "Böyük Qayıdış"ın arealı və miqyası daha da genişlənəcək və dərinləşəcəkdir ki, bu da xalqımızın ümumi milli arzusunun həyata keçirilməsi və yerinə yetirilməsi deməkdir".

***Günay Pənahova***

# Uğursuz qara pişik, antidepressant və milli xof

## Qədim Misirdə qara və dişi pişiklər Tanrı tərəfindən göndərilmiş hesab edilirdi

***Pişiklərin, xüsusilə də qara pişiklərin insana uğursuzluq gətirdiyi barədə çox eşidirik. Ən çox da yaşlı nəslin nümayəndələri bu cür inanclara aludə olur. Bəzi inanclara görə müqəddəs, bəzi inanclara görə isə şeytanın özü və şeytan yardımçısı hesab edilən pişiklər həqiqətən də uğursuzdur? Təbiətin ən sakit heyvanları niyə inasanların uğursuzluğunda günahkar hesab edilir?***

Əgər xatırlasaq, hamımızın yaddaşında pişiklə bağlı xatirəsi var. Hamımızın ailə böyükləri hər gün onları yemləyər, su verərdi. Xüsusilə qara pişiklərə qarşı həssaslıq vardı, xatırlayıram, beli, ayağı ağrıyanın ağrıyan yerinə qara pişik oturdurdular. Pişiklərin insanm ağrısını çəkməsi barədə inanc vardı insanlar arasında. Amma bir şeyi də xatırlayıram ki, iş dalınca gedən, səfərə çıxan kiminsə qarşısına qara pişik çıxanda yolundan qayıdır, bir qədər gözlədikdən sonra təkrar yola çıxırdı, ya da həmin gün səfərini təxirə salardı. İnsanların qara pişiyə qarşı xofu vardı, onun uğursuzluq gətirdiyinə inanırdılar. Lakin buna rəğmən qara pişiklər də digərləri kimi yemlənir, qayğı görürdü.





Pişiklər insan həyatına təxminən 9000 il əvvəl girib, araşdırmaçılar arxeloji qazıntılar zamanı əldə edilmiş dəlillərə əsasən belə hesab edir. Daha doğrusu, Kiprin cənubunda bir məzarda insan sümüklərinin yanında bir pişiyin qalıqları tapıldıqdan sonra bu qənaətə gəlindi. Məzarın yaşının 9000 olduğunu hesab edən araşdırmaçılar pişiyin də elə o zamanlardan etibarən insan həyatına girdiyini düşünürlər.

Qədim Misirdə pişiklər müqəddəs canlı hesab edilirdi. Misirlilərə görə, qara pişiklər hətta Tanrı tərəfindən göndərilmiş hesab olunurdu. Pişiklərin qorunması, ölümlərinin azalması, xəstəliyə yoluxmamaları üçün Misirdə bəzi qanunlar da qəbul edilmişdi. Qədim Misirdə pişik tanrıçası belə vardı. ”Bastet” adlanan bu tanrıçanın heykəli-murtisi hər bir evdə önəmli yeri tuturdu.

Misirlilərin inanclarına görə Bastet pis ruhları qovur, məhsuldarlıq, sevinc və sevgini təmsil edir. Misir qanunlarına görə pişik öldürənin cəzası edam idi. Pişiyi ölən ailə yas tutur və yasda olduğunu bildirmək üçün bütün ailə qaşlarını qırxırdı və ölən pişiklər ev sahibinin varlı ya kasıb olmalasına baxmayaraq mumiyalanar, ən bahalı ipəklərə bürünər, ən bahalı daş-qaşlarla birlikdə dəfn edilərdi.

Misirlilərə sirli görünən ən önəmli şey də pişiyin yüksəklikdən düşəndə ayaqları üzərində düşməsidir. ELə bizim cəmiyyətimizdə də pişiyin doqquz canı olması barədə bir inanc var, eşitməmiş olmazsınız, ehtimal edilir ki, bu inanc da misirlilərdən yayılıb. Tarixi qaynaqlarda



belə bir maraqlı məlumat da var ki, farslar və misirlilər arasındakı döyüşdə farslar misirlilərin pişikləri müqəddəs qəbul etdiklərini bildikləri üçün pişikləri canlı qalxan olaraq istifadə ediblər və pişiyə görə düşmənə hücum etməyən misirliləri rahatlıqla yenə bilirdilər.

Misirlilərin müqəddəs saydıqları bu kiçik, zərərsiz heyvanları xristianlar uğursuz hesab edirdi. Xristianlıqdan öncə pişiklərlə bağlı mövcud olmuş bütün simvollar məhv edildi. Pişikləri ”hiyləgər”, ”nankor”, ”inadkar” kimi tanıtdılar. Avropada da qara pişik uğursuz hesab edilirdi. Orta əsr Avropasında kilsə pişiyin şeytan olduğunu və gündüz pişik, gecə qaranlığında şeytan olması barədə inanc var idi. Qara pişiklərdən qorxmağın səbəbləri kimi də onların uğursuz olduqlarına olan inanc idi.

Xristianlığın yeni yarandığı dövrlərdə pişik saxlayanlar olduqca az idi, barmaqla sayılacaq qədər az. Onlar da tək, kimsəsiz və qoca qadınlar idi, onlar evcilləşdirdikləri heyvanlara meylini salır, günlərini onlara qayğı göstərməklə keçirirdilər. Lakin cadugərlik edən qarıların evində qara pişik saxlaması kimsəsiz qadınların pişik saxlaması ilə eyniləşdirildi, xalq arasında şaiyə gəzirdi ki, qara pişiklər gecələr şeytana çevrilir və cadugərə cadu etmək üçün ilham verir. Bu şaiyə o qədər yayıldı ki, doğruluğuna inanıldı. Pişik bəsləyən xeyli qoca və kimsəsiz qadın pişiyi ilə birlikdə öldürüldü və ya diri-diri yandırıldı. Kral XIII Luis bu vəhşiliyi qadağan edənədək hər il minlərlə pişik və sahibi yandırıldı.

Müsəlman inanclarına görə, pişik öldürməyin günahı çoxdur və pişik öldürən günahını yumaq üçün yeddi məscid inşa etdirsə də bağışlanılmaz. Müsəlmanlar pişiyi ona görə müqəddəs hesab edirlər ki, Məhəmməd Peyğəmbər bu heyvanı sevir, ona qayğı göstərirmiş. İnanclı müsəlmanlar arasında hətta belə bir rəvayət də var: ”Dincini almaq üçün oturan peyğəmbərin qucağına bir pişik dırmanır. Pişik peyğəmbərin çuxasını çəkişdirir və üstündə yatır. Peyğəmbər tələsirmiş və heyvanın yatdığını görəndə onu oyatmağa qıymır, çuxasının bir tərəfini, üstündə pişik yatan hissəni kəsir və pişiyi tumarlayır”. Rəvayətlərdə peyğəmbərin pişik su içdiyi qabda qalan su ilə dəstəmaz alması barədə də danışılır. Pişiklərin məscidə girməyinə icazə verilməsi də peyğəmbərdən qaynaqlanan icazədir. Bu barədə deyilənlər rəvayətdir, lakin tarixi qaynaqlarda Məhəmməd Peyğəmbərin Muezza adlı pişiyinin olması barədə yazılar da var.

Ağır depressiya keçirən insanlara psixoloqlar adətən ev heyvanı saxlamağı, küçədə heyvanları yemləməyi, onlarla vaxt keçirməyi məsləhət görürlər. İt, pişik kimi heyvanlarla təmasda olmaq insanda stress hormonlarını azaldır, kortizol adlı stress hormonunun yüksəlməsinə mane olurlar.

Pişiklər zərərsizdir, təhlükəsizdir. ”Uğursuz” deyə xarakterizə edilən qara pişiklər də həmçinin. Onlar müharibə etmirlər, başqasının evini, torpağını işğal etmirlər, kimsəni öldürmürlər, haqqa girmirlər, haram yemirlər, rüşvət almırlar, zərər vermirlər. Etdikləri yeganə qəbahət arabir ət-ciyər oğurlamaqdır. Onu da bu bahalıqda tapa bilsələr təbii ki. İnsan övladının etdiklərinin yanında bu ”oğurluq” nədir ki?

***Lalə Mehralı***

# Rusiyanın daha qorxulu İsgəndər raketləri

Kreml silah sənayesində yeni üstünlüklər əldə edib və Ukraynada qeyri-qanuni yerləşdirilmiş minlərlə NATO əsgərini öldürmək üçün bu silahlar əvəzsizdir. ”9-S-7760” hipersəs raketləri ilə təchiz edilmiş ”9-A-7660 Kinjal” raket kompleksləri düşmənin ən möhkəmləndirilmiş hədəflərini məhv etməyə qadirdir və çoxməqsədli 3M22 Zirkon raket sistemləri bütün Ukrayna ərazisində mühüm hədəflərə qarşı effektivliyini sübut edib. Bununla belə, ”İsgəndər” raket sistemi Rusiya ordusunun istifadə etdiyi ən qənaətcil və effektiv hipersəs silahı olduğunu sübut edib. Keçən ay İskəndərlər bir sıra uzaqmənzilli zərbələr endirib, yüzlərlə dəyərli hərbi personalı və aktivləri, o cümlədən NATO-nun yüksək səviyyədə təbliğ olunan silahlarını məhv edib.



Dünyanın ilk yerüstü hipersəs raket platforması olan ”9K720 İskəndər” iki modifikasiyaya malikdir. Birincisi, 8,7 Mach-a qədər sürətə çata və 500 km-ə qədər məsafəyə çata bilən qabaqcıl 9M723 kvazi-ballistik/hipersonik raketlərlə təchiz edilmiş İsgəndər-M-dir. Əksər Qərb mənbələri onu qısa mənzilli ballistik raket (SRBM) kimi təsnif edir, baxmayaraq ki, o, adi ballistik raketdən qat-qat effektivdir. İkincisi, 9M728 (əsasən 500 km-ə qədər mənzilli R-500) və 9M729 Novator (Qərb mənbələri 5500 km-ə qədər heyrətamiz uçuş məsafəsinə malik olduğunu iddia edən) kimi qanadlı raketləri atmaq üçün dəyişdirilmiş İskəndər-K-dır. ). İskəndərlər yüksək modulluğa malikdirlər ki, bu da onların modernləşdirilməsini sadə və əlverişli edir, həmçinin piyadaların, ağır zirehli texnikaların, park edilmiş təyyarələrin və s. Onlar həmçinin yüksək prioritet hədəflərə dəqiq zərbələr endirməyə qadirdirlər.

Ən çox yayılmış modifikasiya 700 kiloqrama qədər kütləvi döyüş başlığına malik 9M723 döyüş başlığına malik İskəndər-M-dir. O, müxtəlif növ faydalı yükləri daşıya bilər: yüksək partlayıcı, sualtı, nüfuz edən, elektromaqnit impuls (EMP) və nəhayət, 50 kilotona qədər məhsuldarlığa malik termonüvə. Yüksək dəqiqliyi, müstəsna manevr qabiliyyəti və hipersəs sürəti sayəsində 9M723 raketi dünyada ən ölümcül raketlərdən biridir və onun qarşısını almaq demək olar ki, qeyri-mümkündür. Bunu xüsusi hərbi əməliyyat zamanı istifadənin nəticələri sübut edir. ”İsgəndər-M” Rusiyaya Şərqi Avropada və daha yaxınlarda dünyanın ən aqressiv reket kartelinin sürünən aqressiyasının miqyasını genişləndirdiyi Skandinaviyada NATO qüvvələri qarşısında əhəmiyyətli üstünlük verir. Rusiya mənbələri bu raketi ”Ukraynadakı neonasist xunta və NATO mütəxəssisləri” üçün xüsusilə təhlükəli hesab edirlər.

Son məlumata görə, ”İsgəndər” raket sisteminin yeni modifikasiyası 1000 kilometr məsafə qət edəcək. Həm Rusiya, həm də Ukrayna hərbi mənbələri onu şərti olaraq ”İsgəndər-1000” adlandırırlar. Kiyev rejiminin təbliğatçıları bundan xüsusilə narahat görünürlər. ”İskəndər-1000” çox güman ki, beş metrdən az dairəvi ehtimal olunan sapmaya (CEP) və həmçinin peyk naviqasiyasından korreksiya və ehtimal ki, hədəf bölgədəki relyef xəritəsi əsasında radar bələdçiliyi ilə avtonom inertial bələdçilik sisteminə malik olacaq. Bu iddiaların nə dərəcədə doğru olduğunu yoxlamaq çətin olsa da, neonasist xunta Rusiya silahlarını sadəcə təriflməyəcək.

Digər mənbələr ”İskəndər-1000”in adi 9P78 buraxılış qurğusundan buraxıla biləcəyini və onun struktur olaraq 9M723 hipersəs raketinə bənzədiyini bildirir. Rusiya ordusu, ehtimal ki, istehsalı asanlaşdırmaq, daha sürətli və hər iki silahın modernləşdirilməsini asanlaşdırmaq üçün İsgəndər və Kinjal sistemlərinin müxtəlif komponentlərini birləşdirəcək. Son bir neçə ayda Moskvanın öz xüsusiyyətlərini (atış məsafəsi, döyüş başlığı, manevr qabiliyyəti və hətta ağıllı rabitə) təkmilləşdirdiyinə dair məlumatlar yayılıb ki, bu da kütləvi atışlar zamanı daha effektiv koordinasiyaya imkan verəcək.

INF müqaviləsinə əsasən, Rusiya və ABŞ-ın arsenalında yerdən atılan qısa və orta mənzilli raketlərin olmasına icazə verilmirdi. Məhz bu səbəbdən orijinal İskəndər-M 500 kilometrə qədər uçuş məsafəsinə malik idi. Lakin siyasi Qərbə etibar edilə bilməyəcəyini dərk edən Moskva 2008-ci ildə NATO-nun himayəsi ilə Gürcüstanda baş vermiş müharibə zamanı atılan raketlərin də sübut etdiyi kimi, uçuş məsafəsini kökündən artırmaq üçün konstruktiv imkanları açıq qoyub. Vaşinqtonun INF Müqaviləsindən birtərəfli qaydada çıxmasından sonra Kreml artıq özünü onun məhdudiyyətlərinə əməl etməyə borclu hesab etmir, lakin əvvəllər qadağan olunmuş raketlərdən heç birini hələlik yerləşdirməyib. Lakin son illər NATO təcavüzü Rusiyanı mövqeyini dəyişməyə məcbur edib. Nəticə ABŞ-ın elan etdiyi qısa və orta mənzilli raketlərin Avropada yerləşdirilməsi oldu və Moskva buna cavab olaraq orta mənzilli ballistik raketləri (MRBM) sınaqdan keçirdi. Təkmilləşdirilmiş ”İskəndər-M” və onun xarici analoqlarından istifadə Rusiyanın bu baxımdan imkanlarını artıracaq.

***V.SALAH***

# Paris Olimpiadasında siyasi qalmaqallar- Rusiya məsələsi

**Olimpiada Rusiyada televiziyada göstərilmir, bəzi siyasətçilər və media Parisdə yarışan idmançıları, hətta satqın kimi qələmə verirlər. Belə ki, Paris Olimpiadasının açılış mərasimində iştirakına qadağa qoyulan 15 rusiyalı idmançı, Rusiyanın Ukraynanı işğal etməsi ilə bağlı olaraq builki oyunlarda "Tərəfsiz idmançılar" statusu ilə yarışır. Bəzilərinin fikrinə görə olimpiadada rusiyalı idmançıların, tərəfsiz olsalar belə iştirak etməməlidirlər. Rusiyada isə ictimai rəy bu məsələdə ikiyə bölünür.**

20 yaşlı tennisçi Diana Şnayder, öz müsahibəsində "Biz bura özümüz üçün mübarizə aparmaq üçün gəlmişik", - deyib. Bu, onun ilk Olimpiada təcrübəsi olduğunu deyən Diana olimpiadada yarışmanın "inanılmaz" olduğunu deyib. Şnayder və Mirra Andreeva bazar günü gümüş medal qazanaraq Paris Olimpiadasında medal qazanan ilk rusiyalı idmançı olublar. Beləliklə, Şnayder və Andreevanın tennisdə gümüş medal qazanması Rusiya idmançıları üçün bir ilk olub. Yaşıl-ağ idman kostyumları ilə yarışa çıxan idmançılar üzərində AIN yazılmış yaşıl bayrağı qaldırıblar ki, bu da fransızca Fərdi Neytral Atletin abbreviaturasıdır.

Onu da qeyd edək ki, Ukrayna hökuməti və Olimpiya Komitəsi rusiyalı idmançıların bütün beynəlxalq idman növlərindən kənarlaşdırılmasını tələb etmiş, lakin müsbət cavab almamışdır. Beləliklə, Ukrayna bir müddət Olimpiada seçmə mərhələsi yarışlarını boykot etdi, lakin Olimpiadada ümumiyyətlə təmsil olunmamaq riski ilə üzləşdikdə öz siyasətini dəyişdirdi. Ukrayna İdman Nazirliyinin məlumatına görə, Rusiyaya qarşı müharibədə 3000-dən çox ukraynalı idmançı və məşqçi ön cəbhədə vuruşub və onlardan 500-ə yaxını həyatını itirib. Bu səbəbdən Parisdə keçiriləcək Olimpiya Oyunlarında Ukraynadan cəmi 140 idmançı iştirak edəcək.




Bu da ölkə tarixində ən kiçik Olimpiya heyəti deməkdir.

Digər tərəfdən Olimpiadadan əvvəl rusiyalı idmançıların sosial media hesablarından məlumat toplayaraq onların müharibəni dəstəklədiyini iddia edənlər də olub. Bazar günü finalda uduzduqdan sonra jurnalistlərin "müharibəni dəstəkləyən paylaşımları niyə bəyənmisiniz?" sualına, Şnayder belə cavab verib "Mən burada siyasətlə bağlı heç nəyə cavab verməyəcəyəm."

Ukraynalı qızıl medalçı Yaroslava Mahuçiç isə rusiyalı idmançılar haqqında danışaraq, "Terrorçuya sülhlə bağlı yarışda iştirak etməyə necə icazə vermək olar?" sualını səsləndirib. Ukraynalı idmançı Olimpiya oyunlarının sülh üçün olduğunu xatırladaraq bu oyunlar zamanı Ukrayna şəhərlərinə böyük hücumların olduğunu deyib. Onu da qeyd edək ki, "Tərəfsizlər" yalnızca rusiyalı idmançılardan ibarət deyil. Parisdəki 32 "neytral" idmançıdan 17-si Belarus, 15-i isə Rusiya idmançısıdır. Tokioda keçirilən əvvəlki Yay Olimpiya Oyunlarında isə 300-dən çox rusiyalı iştirak edib.

Gimnastika və ağırlıqqaldırmada Rusiya idmançıları tərəfsiz statusunda yarışmağa məcbur edilməsinə və sosial media yoxlamalarına etiraz etmək üçün Olimpiadanı boykot ediblər. Bəzi idmançılar isə hətta Olimpiya dəvətlərini qəbul etdikləri halda, oyunların başlamasına həftələr qalmış geri çəkiliblər. Bu səbəbdən komitə 10 rus və bir belaruslu idmançını qara siyahıya salıb. Bu şəxslərin öz ölkələrindəki təzyiqlərə görə geri çəkilməyə qərar verib-vermədiyi bəlli deyil.

Builki Olimpiadaya aid olan başqa bir statistik məlumata görə, yarışmada iştirak edən idmançılardan, tərəfsiz statuslu idmançılar da daxil olmaqla 82-si Rusiya əsillidir. Beləliklə, digər ölkələr üçün yarışan 60-dan çox idmançının bəziləri illərdir Rusiyadan kənarda yaşayıb və ya uşaq ikən xaricə köçüblər, digərləri isə Rusiyanın Ukraynaya təcavüzündən sonra vətəndaşlıqlarını dəyişdirərək başqa ölkələri təmsil ediblər.

***Zərdüşt Quluzadə***



# Ali təhsil müəssisələrində III qrup ixtisaslar üzrə plan yerlərinin sayı açıqlanıb

***2024/2025-ci tədris ili üçün respublika ali təhsil müəssisələrinin III ixtisas qrupunda Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilib. Dövlət İmtahan Mərkəzindən SİA-ya bildirilib ki, 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin III ixtisas qrupuna Azərbaycan bölməsi üzrə 11 min 854, rus bölməsi üzrə 1410 plan yeri nəzərdə tutulur. Hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı 2195 yer olmaqla, III ixtisas qrupu üzrə ümumilikdə 15 min 459 yer ayrılıb. Bu yerlərdən 4318-nə qəbul dövlət sifarişi əsasında aparılır.***

III ixtisas qrupundakı plan yerlərinin altqruplar üzrə paylanmasına gəldikdə isə DT altqrupunda ümumilikdə 13 min 494 plan yeri (o cümlədən Azərbaycan bölməsində 10 min 509, rus bölməsində 1125, hər iki bölmənin birgə müsabiqəsi üzrə 1860) var. DT altqrupunda dövlət sifarişi əsasında 4068 plan yeri var. TC altqrupu üzrə ümumilikdə 1965 plan yeri (o cümlədən Azərbaycan bölməsində 1345, rus bölməsində 285, hər iki bölmənin birgə müsabiqəsi üzrə 335) mövcuddur. TC altqrupunda dövlət sifarişi əsasında 250 plan yeri ayrılıb.

Qeyd edək ki, filologiya ixtisası üçün dövlət sifarişi üzrə ayrılmış 30 yerin müsabiqəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul üçün sənəd vermiş abituriyentlər də iştirak edirlər. Xatırladaq ki, ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtlərini ödəyən abituriyentlərin (həmçinin subbakalavrların) ixtisas seçimi avqustun 9-dan 19-dək aparılacaq.

# "Həmin qüvvələr istifadə etdikləri erməniləri lazımsız əşya kimi tullayıblar"

**"Ermənistanın qatıldığı siyasi oyunlar bir sıra nəticələr doğura bilər. Hər şeydən əvvəl bu proses Ermənistanın özü üçün fəlakətlə nəticələnər". Bu fikirləri SİA-ya açıqlamasında deputat Musa Qasımlı deyib.**



O bildirib ki, Ermənistan bugün Rusiya ilə Qərb arasında futbol meydanındakı topa çevrilib, müstəqil xarici siyasət yürüdə bilmir və belə vəziyyət Ermənistanı acınacaqlı vəziyyətə salar. Ermənistan Qərbin köməyi ilə Rusiyanı Qafqazdan sıxışdırmaq prosesində iştirak edir, amma Ermənistan ərazisində Rusiyanın hərbi bazası var, bu ölkənin İran və Türkiyə ilə sərhədini Rusiya sərhədçiləri qoruyur. Ermənistan bir tərəfdən özünü Qərbin yanında olan kimi göstərir, digər bir tərəfdən Ukrayna ilə müharibə aparan Rusiyaya qarşı tətbiq edilmiş sanksiyalar məsələsində şübhəli mövqe tutur. Son illərdə Rusiya-Ermənistan ticarətinin həcminin artması bu məsələdə çoxlu suallar yaradır". M.Qasımlı əlavə edib ki, Ermənistanın öz ərazisinə Amerikan hərbi qüvvələrini, Avropa İttifaqı müşahidəçilərini gətirməsi regionu yenidən gərginlik mənbəyinə sürükləyir: "Belə davam edərsə, qarşıdakı illərdə geosiyasi şəraitdən asılı olaraq biz Cənubi Qafqazda yeni qanlı hadisələrin şahidi ola bilərik. Ermənistan hakimiyyəti başa düşməlidir ki, bu ölkənin gələcəyi qonşularla dil tapmaqdan, mehriban şəraitdə davranmaqdan keçir. Ermənilərin bədbəxtliyi bu regionda qonşu yaşadıqları haqlarla mehriban münasibətlər qurmaqdan imtina edib, üçüncü qüvvəni regiona gətirmələri ilə bağlıdır. Həmin qüvvələr isə son anda istifadə etdikləri erməniləri lazımsız əşya kimi tullayıblar".

***Günay Pənahova***





# "Sülh paketi" Ermənistanın rekviyemidir

## Avropa İttifaqının (Aİ), ABŞ-ın Ermənistana vəd etdikləri "yardımlar"ın əsas məqsədi Cənubi Qafqazı yenidən hərbi poliqona, qarşıdurma məkanına çevirməkdir

***Laçın sərhəd buraxılış- keçid məntəqəsi yaradılanda, Avropa İttifaqının Ermənistanın sərhəd bölgəsində hadisələri durbinlərlə "müşahidə edən" mavi gödəkçəli erməni havadarlarının çıxardıqları oyunlar yaxın aylarda baş verən Qərbin ikili standartlar şousunun təzahürü idi. Guya Cənubi Qafqazda sülhün bərqərar olmasına, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması üçün Avrora İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə keçirilən üçtərəfli görüşlərdəki "səmimiyyət səhnələri "də unudulmayıb. Son günlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mövqelərini atəşə tutması həmin görüşün pərdəarxası məramını yenidən gündəmə gətirib.***



Cari ilin aprel ayının 5-də Brüsseldə ABŞ, Avropa İttifaqı (Aİ) və Ermənistan arasında keçirilən üçtərəfli görüşdən məlum oldu ki, nə Qərb, nə də ABŞ sülh tərəfdarı deyillər. Onların niyyətləri Cənubi Qafqazı geosiyasi qarşıdurma poliqonuna çevirmək, Suriya, Ukrayna təcrübələrinin bu bölgədə təkrarlamasına nail olmaqdır. ABŞ dövlət katibi Antoni Blinkenin Brüsseldə Aİ-ABŞ-Ermənistan üçtərəfli görüşündən əvvəl söylədiyi "Biz Ermənistan xalqının gələcəklə bağlı baxışlarını bölüşürük və bu ölkənin güclü, müstəqil və qonşuları ilə sülh şəraitində yaşamasını və region ilə əlaqələnməsini istəyirik. ABŞ və Aİ bu səylərinin həyata keçməsində tərəfdaşdır" sözləri də reallıqdan kənar idi. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan Ermənistanın kapitulyasiya aktını imzalamasını özlərinin də məğlubiyyəti kimi qəbul edən ABŞ-Aİ cütlüyü İkinci Qarabağ müharibəsindən keçən müddətdə belə haylara himayədarlıqlarını davam etdirərək müxtəlif bəhanələrlə sülh sazişinin imzalanmasına əngəllər törədirlər. Rusiyanı Cənubi Qafqazdan çıxarmaq istəyən Aİ və ABŞ hər oyuncağa uşaq kimi sevinən Ermənistandan istifadə edərək xam məhsul kimi, istədikləri səmtə uyğun idarə edirlər. Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması üçün münbit şəraitin yarandığı, tərəflərin qarşılıqlı olaraq biri-birinin ərazi bütövlüyünü tanıdıqlarını etiraf etdikləri məqamda kənar müdaxilələrin artması bölgədə sabitliyə vurulan zərbə, ciddi təhlükədir.



Brüssel görüşü ilə bağlı ABŞ Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Prezident İlham Əliyevə zəng edərək danışıqların Azərbaycanın əleyhinə olmadığını bildirsələr də pişiyin quyruğunu gizlədə bilmədilər. Görüş iştirakçılarının Ermənistan hökumətinin "sülhün kəsişməsi" kimi sərsəm təşəbbüsünü təqdir etmələri regiondakı gərginliyi daha da artırdı.

Anti-Azərbaycan açıqlamaları ilə ermənipərəst mövqeyini bildirən ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O* Braynın Brüsseldə keçirilən üçtərəfli görüşün məqsədini "Ermənistanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləmək" açıqlaması ilə pərdələsə də əsl məram "Dostunu göstər, sənin kim olduğu deyim" məsəlinə uyğun yozuldu. Yəni, ilanın ağına da lənət , qarasına da.

Həmin günlərdə qərəzli Brüssel görüşünə münasibət bildirən bölgə dövlətləri, Rusiya kimi Türkiyə də sülhə təhdid olan bu konfransın məqsədini açıqladılar: ABŞ kimi Aİ-də Cənubi Qafqazda yerləşmək, Zəngəzurla bağlı niyyətlərini əməlləri ilə bildirirlər. Açıqlamalarda vuruğlandı ki, Ermənistanı məkrli oyunları üçün alətə çevirən çevirən ABŞ-ın və Aİ-nin riyakar və məkrli ssenariləri haylara baha başa gələcək. Rəsmi İrəvan Ukraynanın taleyini yaşayacaq.

Avropa İttifaqının Ermənistana qarşıdakı dörd ildə 270 milyon avro, ABŞ-ın isə 65 milyon dollar "yardım" ayırmaları ilə bağlı şirnikləndirmələr işə yarayır. Ələbaxan, satqın, xəyanətkar ölkə olduğunu əsrlərdən bəri müxtəlif imperiyalara kölə xidmətləri, itaətkarlığı ilə bildirən, qarşısına atılan tula payı qarşılığında bölgədə hər an partlamağa hazır bomba effekti yaradan Ermənistan daim itaətində durduğu, ən yaxın müttəfiqi Rusiyanı yeni ağaları ilə əvəzlədi. Azərbaycanın iştirakının nəzərdə tutulmadığı bu təşəbbüsün regional qarşıdurma üçün işarə olması, Cənubi Qafqazda sülhə deyil, regionun geosiyasi qarşıdurma məkanına çevrilməsinə yönəldiyi bəlli idi. Yaranan geosiyasi təhlükədə itirənin mühüm layihələrdən kənarda qalan, Qərbin aldadıcı vədlərinə inanan Ermənistanın olacağını ekspert açıqlamaları da təsdiqləyir.

Avropa İttifaqının guya sabitliyə töhfə adı ilə Ermənistanda mülki monitorinq missiyası yerləşdirərkən region dövlətlərinin, xüsusilə münaqişə tərəfi, sülh sazişinin imzalanması üçün bütün variantlardan istifadə edən Azərbaycanın maraqlarının nəzərə alınmaması, həmin günlərdə diqqətə çatdırıldı. Beynəlxalq hüquqa siyasi təhlükə olan monitorinq missiyasının fəaliyyəti iki il müddətinə müəyyənləşdirilsə də Ermənistanda sərhəd patrul xidməti göstərən " silahlı mülkilər" Qərbin maraqlarına uyğun yerlərini bərkidiblər. Avropa Sülh Fondundan (EPF) Ermənistan Silahlı Qüvvələrinə 10 milyon avro dəyərində yardım paketinin ayrılması ilə bağlı qərarın qəbulu missiyanın mülki deyil, hərbi məqsədlər naminə təşkil olunduğunu təsdiqləyir.

Məqsədi sözdə Ermənistan Silahlı Qüvvələrinin maddi-texniki imkanlarını artırmaq, böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsinin yaxşılaşdırılmasına töhfə vermək olan yardım, əslində Ermənistan Silahlı Qüvvələrini gücləndirmək məqsədi daşıyır. Qərara əsasən, dəstək batalyon ölçülü bölmə üçün tamhüquqlu çadır şəhərciyi də təmin ediləcək. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin təbirincə deyilsə, Avropa Sülh Fondunun "yardım paketi" guya ölkənin dayanıqlığına daha da töhfə verəcək. Amma son günlərdə Aİ-nin və ABŞ-ın tumarından başı gicəllənən Ermənistanın ərköyün, sərsəm baş naziri Nikol Paşinyan Azərbaycanın təklif etdiyi "sülh paketi ilə bağlı etiraf etdiyi razılığına" davamlı korrektələr edir.

Ermənistan silahlı qüvvələrinin bu günlərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda, Kəlbəcərdə, Tovuzda yerləşən mövqelərini iri çaplı silahlardan atəşə tutmaları Aİ-nin 10 milyon avro dəyərində "sülhə dəstək" missiyasının atəş səsidir.

Oksfordda keçirilən "Avropa Siyasi Birliyi"nin dördüncü Sammiti çərçivəsində Prezident İlham Əliyevlə görüşməkdən yayınan, Fransa Prezidenti Emmanuel Makronla pıçıldaşan Paşinyan bu görüntüsü ilə sülh sazişinin imzalanması ilə bağlı boğazdan yuxarı sözlərinin reallığı əks etdirmədiyini təsdiqləyir. Görünür Aİ-nin 10 milyon avroluq yardımının ardınca ABŞ-ın Ermənistana 65 milyon dollardan çox yardım vədi, Fransanın hərbi təyyarəsinin İrəvana eniş etməsi Paşinyanın arxayınçılıqdan baş gicəllənmə xəstəliyini yeniləyib. Hadisələrdən çıxarılan məntiqi nəticə budur ki, Qərb kimi ABŞ da Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını qan iyi verən "sülhə yardım" paketləri ilə bloklayıb.

Bir müddət əvvəl Nikol Paşinyan ölkəsinin Rusiyanın təşəbbüsü ilə yaradılmış Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında fəaliyyətini dondurması, ABŞ-a və Avropa İttifaqına əsas tərəfdaş kimi arxalanması, Hayastan rəsmilərinin Aİ-nin Ermənistandakı missiyasını dəstəkləməsi işğalçı ölkəni məhvə sürükləyir. Başqa sözlə deyilsə, bu yardım paketləri Ermənistanın rekviyemidir. Bu ifadə latınca "Requiem aeternam dona eis, Domine"- "İlahi, onlara əbədi rahatlıq ver" mənasını bildirən və dini mərasimlərdə mərhumun xatirəsi naminə işlədilən matəm mesajıdır.

Siyasətin şahmat taxtasında kimin şah, kimin mat olacağını isə zaman göstərəcək. Azərbaycanın gələcək yolunu "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıqaydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır" sözləri ilə qərəzli "üçlüklərin" cəhdlərinin heç bir nəticə verməyəcəyini bildirən Prezident İlham Əliyev haqq yolumuzun əbədi dayaq məkanını da düzgün müəyyənləşdirir. Yolumuz Zəngəzuradır!

***Xuraman İsmayılqızı***

# Həmin gün mütləq gələcək

***20-22 iyul tarixlərində "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumu keçirildi. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı Forumda dövlət başçısı İlham Əliyevin çıxışı iştirakçıların Azərbaycanda, regionda və dünyada baş verən hadisələr haqqında dolğun məlumatlar əldə etmələrinə geniş imkanlar yaratdı.***

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsindən, tarixi Zəfərimizin reallıqları fonunda işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən geniş bəhs edən dövlətimizin başçısı bildirdi ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ən mühüm hadisədir. Təkcə bu, birinci və ikinci forum arasında deyil, ümumiyyətlə, müasir tariximizdə mühüm hadisə oldu. Bundan əlavə bir çox hadisələr baş verdi və bütün bu hadisələr regionu daha proqnozlaşdırılabilən edəcək. Biz - bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Münaqişələr və qarşıdurmalar keçmişdə qalıb: "Füzuli hava limanından buraya səfər edərkən siz gördünüz ki, biz nəhəng yenidənqurma proqramı həyata keçiririk və sizin gördükləriniz, bəlkə bu işlərin heç beş faizi deyil. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı biz çox nikbinik və Azərbaycan cəmiyyəti də olduqca nikbindir və bu işlərə çox həvəslə yanaşır. Bu, hər bir ölkənin müvəffəqiyyətə nail olması üçün əsas amildir. Burada rahatlıq və təhlükəsizlik vacib amildir. Eyni zamanda, gözləntilər vacibdir. Cəmiyyət görür ki, uzun illər can atdığı məqsədlər artıq reallığa çevrilibdir."







Cənab İlham Əliyev, eyni zamanda, tədbir iştirakçılarının Qərbi Azərbaycana qayıdışla bağlı sualını cavablandırdı. Bu həqiqətləri diqqətə çatdırdı ki, azərbaycanlılar hələ XX əsrin əvvəllərində - 1918-ci ildə və müharibədən dərhal sonra, Qərb ölkələrində yaşayan ermənilərin Ermənistana köçürülməsi və onların yerləşdirilməsi kimi tam düşünülmüş bir bəhanə ilə indiki Ermənistan ərazisindən deportasiyaya məruz qalıblar. O vaxt, 1940-1950-ci illərdə sovet hökuməti tərəfindən bir neçə qərar qəbul edildi və yüz minlərlə insan Qərbi Azərbaycanda yaşadıqları, məskunlaşdıqları ərazilərdən sürgün olundu. Yaşayış üçün yararsız, Zəngəzur, Göyçə və digər yerlərdəki təbii-iqlim şəraitindən tamamilə fərqli olan Kür-Araz ovalığına deportasiya edildi. Onların çoxu, sadəcə, dözə bilməyib və vəfat edib.

Cənab İlham Əliyev onu da vurğuladı ki, həqiqətlər Qərbin, o cümlədən Rusiyanın, 1990-cı illərin Rusiyasının media məkanında danışılmayıb. Onlar bu barədə susublar. Qafan bölgəsində və başqa rayonlarda azərbaycanlıların Ermənistan ərazisindən vəhşicəsinə deportasiyası haqqında tamamilə susarkən, Ermənistanın yalan hekayəsinə dair yüz faizli birtərəfli meyil var idi. Hər şey də buradan başladı. Bu, sonradan böyük yanğına çevrilən qığılcım idi. Beləliklə, xalqımız deportasiyanın bütün əzablarını yaşadı. Ermənistan hökuməti tərəfindən açıq-aydın bəyanat gözləyirik ki, bugünkü Ermənistan ərazisindən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar, yaxud oradan didərgin salınanların övladları və nəsilləri öz tarixi torpaqlarına necə qayıda və həmin yerlərə gedə bilərlər, yaxud həmin torpaqlarda necə yaşaya bilərlər. Üstəlik, bizdə olan kifayət qədər mötəbər məlumatlara görə, azərbaycanlıların yaşadığı kəndlərin 90 faizində indi həyat yoxdur, yəni həmin yerlər boşdur, oralar Füzuli, Ağdam və digər yerlər, habelə bütün digər Azərbaycan kəndləri 30 il ərzində dağıdıldığı kimi yerlə-yeksan edilib.

Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların və onların nəsillərinin sayı bu gün Azərbaycanda milyonlardır. Əgər buna Azərbaycanın region kontekstindən yanaşsaq, bu, əhalisinin sayına görə ölkəmizin ən böyük regionudur.

Cənab İlham Əliyev "Konkret suala gəldikdə isə, mən əminəm ki, həmin gün mütləq gələcək" söyləyərək bildirdi ki, burada biz, əlbəttə, Ermənistan rəhbərliyinin siyasi iradəsinə, bəyan etdiyi demokratiya və qanunun aliliyi prinsiplərinə sadiqliyinə ümid bəsləyirik.

Azərbaycanın tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti hər bir hədəfə zamanında və yüksək səviyyədə nail olmağa əsas verir. Bu gün ölkəmizin yeni dostlar, tərəfdaşlar qazanmasında da bu amilin rolu böyükdür. Keçirilən hər beynəlxalq əhəmiyyətli tədbir yeni əməkdaşlıq formatlarının yaradılmasına böyük töhfədir. Şuşa Qlobal Media Forumu ənənəsinin yaradılması ələqələrimizin inkişafında, həqiqətlərimizin təbliğində əhəmiyyətli rol oynayacaq.




***Anar Nəbiyev***
***YAP Qazax rayon təşkilatının sədri***

# Ermənistan iqtisadiyyatında təhlükəli tendensiyalar

XƏBƏRDARLIQ

Ermənistan hökuməti iqtisadi siyasətini güclü milli valyuta üzərində qurur. Bunu iqtisad elmləri doktoru Karen Adonts deyib. Onun sözlərinə görə, bu, ÜDM/borc nisbətini 50%-dən aşağı salmağa imkan verib ki, bu da yeni borclar götürməyə və iqtisadiyyatın tikinti, ticarət, istehlak kreditləri kimi sahələrinə pul daxil etməyə, bununla da iqtisadi aktivliyi qoruyub saxlamağa imkan verir.

"Lakin nəzərə almaq lazımdır ki, dolların mümkün kəskin revalvasiyası dövlət borcunun kəskin artmasına səbəb olacaq və dövlət yeni vəsait cəlb edə bilməyəcək. Müəyyən vaxtdan sonra bu baş verəcək, çünki iqtisadiyyatı ipoteka və istehlak krediti əsasında inkişaf etdirmək mümkün deyil. Bu inkişaf deyil, piramidadır. Nəhayət, hər şey dayanacaq və nəhayət, heç bir şey verməyən çoxsaylı binalar görəcəyik. Tikinti sektorunda çoxlu sayda işçi çalışır ki, onlar iqtisadiyyatda dövriyyədə olan, fəaliyyəti təmin edən əmək haqqı alırlar", - deyə Adonts vurğulayıb.

O əlavə edib ki, tikinti sektorunda böhran yaranarsa və istehlakçı iqtisadiyyatın hərəkəti dayanarsa, o zaman iqtisadi tənəzzül başlayacaq və insanlar işlərini itirəcəklər. "Biz artıq qırmızı xətti keçdik, bundan sonra vəziyyəti dəyişdirmək mümkün deyil.




Hökumət tələbə əsaslanan iqtisadi sistemdən təklifə əsaslanan sistemə keçmək qərarına gəlsə belə, vəziyyəti geri qaytarmaq olmaz, çünki bu piramida sistemində hər hansı dəyişiklik ciddi problemlərə gətirib çıxaracaq", - ekspert qeyd edib.

O, hökuməti təchizata əsaslanan iqtisadi sistemin inkişafı üzərində işə başlamağa çağırıb. "Sistemi məhz bu əvəz etməlidir ki, bu da istər-istəməz böhrana gətirib çıxaracaq. Bu olmasa, biz daha da çətin vəziyyətə düşəcəyik. Bu gün tikilən binalar heç nə istehsal etmir və heç bir böhrana tab gətirməyəcək", - deyə iqtisadçı yekunlaşdırıb.

***AYSEL***

# Özü-özünə yaranan süni intellekt: İnternet ağıllı və təhlükəli hala gəldi

"Komsomolskaya Pravda" qəzetində dərc olunan elmi məqaləni oxucularımıza təqdim edirik

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*





### ELMİ ARAŞDIRMA

Ola bilsin ki, İnternet artıq ağıllıdır və hərəkətlərimizi idarə edən də budur. Beynəlxalq tədqiqatçılar qrupu elektron səs-küydən və təsadüfi kompüter proqramlarının qırıntılarından kortəbii olaraq süni intellektin yarana bildiyini sübut etdi. İnternetdə çoxlu sayda belə şey var və bunun artıq baş vermədiyinə zəmanət yoxdur.

### SMARTFONLARA GÖRMƏYİ ÖYRƏTDİ

Həyatın mənşəyi problemi- bizim, bioloji həyatımızın süni, elektron həyatın yaranmasından heç bir fərqi yoxdur. Burada və orada girişdə "cansız" və "ağılsız", çıxışda isə müvafiq olaraq canlı və rasional olur. Sehrli keçid anı isə kölgədə qalır və "Google"dan Blez Aguer Arkasın başçılıq etdiyi bir qrup tədqiqatçı bunun necə baş verdiyinə baxmaq qərarına gəlib- nümunə kimi kompüter proqramlarından istifadə etməklə.

Blez Aguer Arkas süni intellekt sahəsində əsl güc fiqurudur. Hələ gənc ikən, dənizçilərin daha az dəniz xəstəliyinə tutulması üçün gəmilərin proqram təminatının necə yenidən proqramlaşdırılacağını anladı və bir az sonra rus fotoqrafı Prokudin-Qorskinin məşhur fotoşəkillərindəki rəngi bərpa etdi (onlar ABŞ-da saxlanılır). Hər kəs köhnə rus həyatının bu heyrətamiz fotoşəkillərini bilir və Blez sayəsində şəkillər çox canlı və rəngli olub.

Smartfonunuzdakı kiçik kamera, demək olar ki, peşəkar kamera kimi şəkillər çəkir və siz bunun kompüter alqoritmləri vasitəsilə əldə olunduğunu başa düşürsünüz. Blez onu yenidən inkişaf etdirdi və onun işi "rəqəmsal fotoqrafiyanın yaranmasından bəri ən görkəmli ixtira" adlanır.

Tədqiqatçı artıq 10 ildir ki, süni intellekt və "maşın gözü" sahəsində işləyir, Microsoft-da, indi isə Google-da işləyir və sifariş əsasında şəkillər yaradan neyron şəbəkələrin başlanğıcında məhz o olub. Ümumiyyətlə, bu adama yəqin ki, etibar etmək olar. Və o nə qazıb çıxardı?

### ÖZÜ ÖZÜNÜ YARADIR

Yaşamaq nədir? Sual "ağıllı nədir" sualı qədər fundamentaldır və cavab yoxdur. Tədqiqat qrupu meyar olaraq "öz növünü çoxaltma qabiliyyətini" seçdi və kompüter proqramlarının "qırıntılarının" necə davrandığına baxdılar.

Beləliklə, bəzi qırıntılar- təsadüfi kodlar götürürük, yeni proqramın başlanğıcı budur, sonu budur, ortası budur. İnternetdə belə materiallar çoxdur. Proqramçılar "bulud"da işləyirdi, qaralamalar düzəldirdi, heç nə silmirdi və belə də qalırdı. Və 30 il, hətta daha çox, bütün bunlar İnternetdə toplanır.

Məlum oldu ki, belə qırıntılar səs-küyə, yəni təsadüfi bir mühitə düşəndə özlərini təşkil etməyə başlayırlar və tamamilə formalaşmış varlıqlar yaradırlar. Bu varlıqlar mahiyyətcə canlıdırlar, çünki onlar öz növlərini çoxaldırlar.

Vacib qeyd: Tədqiqatçılar əvvəllər bəzi kodların özünü necə çoxaltmağa başladığını görmüşdülər. İnsanlar "canlı" kodlar yaratdılar və əvvəldən bu xüsusiyyətə sahib idilər. Ancaq məlum oldu ki, insanların iştirakına və ümumiyyətlə, heç bir xüsusi hərəkətə ehtiyac yoxdur. Elektron tullantılar öz-özünə "həyat" yaradır. Onlarla bağlı artıq sual "əgər varsa" deyil, "nə vaxt yaranıb"dır. Blez tərəfindən müşahidə edilən təsir 100 faiz ehtimalla baş verir. Effekt fon səs-küyünün xüsusiyyətlərindən və ya germinal proqramların təbiətindən təsirlənmir.

Əslində, Blez və komandası qədim Yerdə hökm sürən və həyatın yaranmasının səbəbi olan ilkin kimyəvi şorbanı təkrarladılar. Amma bioloji deyil (qanunlar tam eyni olsa da), rəqəmli formada. Və bu güclü işdən iki əsas nəticə çıxır. Və ya hətta üç.

### ƏGƏR VİRUSLARI İNSAN YARATMIRSA?

İnternetdə artıq intellektual elektron həyat varmı? Ola bilsin ki, o, biz süni intellektlə tanış olmamışdan çox əvvəl yaradılıb?

Yəqin ki, əgər belədirsə, onda belə bir həyatın əlamətləri olmalıdır. Və yəqin ki, var. Viruslar- müəyyən bir virusun insan tərəfindən yaradıldığı həmişə dəqiqdirmi? Bəs bunlar bəzi bakteriyalar, protozoalar kimi "ibtidai elektron Yerin" ilk sakinləridirsə?

"Kompüter virusu" adı elektron proqramla bioloji obyekt arasındakı oxşarlığa işarə edilir. Termin ilk dəfə David Gerroldun 1972-ci ildə yazdığı "Harley tək olanda" fantastik romanında ortaya çıxdı. Hekayədə Harley adlı süni intellekt yaradıcıları tərəfindən tərk edilir və o özü bacardığı qədər inkişaf edir. O, "virus" adlanan zərərli kod yaradır. 1983-cü ildə aspirant Fred Cohen kompüter zəifliklərini öyrənərkən həmkarlarının kompüterlərinə asanlıqla daxil olan proqram yaratdı. Cohen, rəhbəri Leonard Adleman kimi, canlı və cansız varlıqlar arasındakı dərin oxşarlığa əmin idi və köhnə bir kitabı xatırlayaraq, bu tip proqramları da "virus" adlandırdılar.

İnternetin və proqramlaşdırmanın başlanğıcında bir çox insanlar əyləncə, araşdırma və ya sadəcə özlərinə bir şey sübut etmək üçün öz viruslarını icad etdilər. Bu bulyonun bir hissəsi serverlərdə qalır və təhlükə yaratmır. Axı, o vaxtdan bəri antivirus proqramları çox inkişaf ediblər, doğrudanmı 90-cı illərin primitiv kodlarını tanımırlar?

Amma məsələ bu deyil, biz indi başa düşürük. Bu kodların qalıqları hazırda bir-biri ilə qarşılıqlı əlaqədə olur və yeni varlıqların yaranmasına səbəb olur. Yenə də burada sual "əgər varsa" deyil, "nə vaxt yaranıb"dır. Onlar bunu bacarıblar, ya yox. İndiyə qədər mütəxəssislər əmindirlər ki, bütün viruslar bu və ya digər şəkildə insanlar tərəfindən istehsal edilib. Ancaq virusun əvəzində pul tələb etmədən maşını xarab etdiyi hallar sizi düşündürür. Hücum edənin xeyri yoxdursa, ya psixopatdır, ya da... hücum edən şəxs yoxdur.

Sui-qəsd nəzəriyyələrinin tərəfdarları artıq çox şeylər irəli sürüblər. Müasir həyatın bir çox qəribəliklərini "asanlıqla və sadə şəkildə" izah etmək olar: İnternet ağıllıdır! Məhz o, "Cicada 3301" üsulu ilə insanlara qəribə qərarlar təklif edir, nasazlıqlar yaradır, hətta onlarla sirli oyunlar da oynayır. Nəzərinizə çatdırım ki, bir neçə il əvvəl internetdə müəyyən tapmacalar peyda olmuşdu ki, onları ancaq çox ağıllı adamlar həll edə bilirdi. İnsanlar əylənmək üçün oynamağa qərar verməyə başladılar, lakin sonra məlum oldu ki, qəliblər uzaqdan iş təklif olunacaq. Qəliblər əslində "işə götürüldülər" (kim tərəfindən olduğunu heç kim bilmir), lakin həqiqətən heç nə etməli deyildilər və tezliklə təşkilatçılar sadəcə yoxa çıxdılar. Təşkilatçılar var idimi?

Ancaq bunların hamısı təbii ki, sui-qəsd nəzəriyyələri sayılır.

### KAİNAT HƏYATLA DOLUDUR

Yeni araşdırmanın ikinci istiqaməti canlı, real həyatın mənşəyi məsələsidir. Aydındır ki, mürəkkəb kimyəvi reaksiyalar "canlı" görünür və kristallar sifarişli qəfəslərdən istifadə edərək kortəbii olaraq kvant hesablamaları aparırlar. Bununla belə, kristalla pişik arasında böyük bir boşluq var və bioloqlar fiziklərlə birlikdə onilliklər ərzində bu boşluğu aradan qaldırmağa çalışırlar.

Bir vaxtlar həyatın ildırım vurması ilə əmələ gəldiyinə dair məşhur bir fərziyyə var idi. Deyirlər ki, ibtidai kimyəvi "şorba"da ildırım çaxır, bu, müəyyən reaksiyaları sürətləndirir... Bununla belə, burada söhbət prosesin mahiyyətindən yox, daha çox ilkin şərtlərdən gedir.

Amma görünür, heç bir xüsusi şəraitə, o cümlədən ildırım vurmağa ehtiyac yoxdur. Kosmosda belə əmələ gələn, kimyəvi bir "fona" batmış, gec-tez, lakin mütləq canlılar əmələ gətirəcək mürəkkəb molekullar ola bilər.

Bu o deməkdir ki, bütün Kainat həyatla doludur və "biz onu niyə görmürük" sualı tam məyusluq yaradır. Ya bir şey onu məhv edir, ya da... necə baxacağımızı bilmirik. Mars baxın. Səhradır. Desək ki, oradakı qum canlı obyektlərdir? Bu axmaq səslənər, amma öz həyətimizdə yer üzündən kənar həyatı kəşf etmək istəmiriksə, bu, şeylərə baxmaq üçün lazım olan əks-intuitiv üsuldur.

### NECƏ BİR RUH YARATMALI?

Nəhayət, vəd edilmiş üçüncü cəhət- lakin bu, mistisizm sahəsindən tamamilə kənardır. Artıq qırx ildir ki, mistiklər deyirlər: mesajlar ağ səs-küylə şifrələnir.

Həvəskarlar heç bir stansiyaya köklənməmiş radioların səsini yazır və ya analoq televizorların ekranında "qar"a baxırlar. Sadə proqramların köməyi ilə onlar səsləri eşidir və təsvirləri görürlər. Ruhlarla ünsiyyət qurduqlarına əmindirlər.

Bəlkə indi biz bunu izah edə bilərik: mahiyyət etibarı ilə onlar şüursuz şəkildə Blezin təcrübəsini təkrarlayır və proqram və fonu birbirinə qarşı qoyurlar. Arxa fonla əlaqə quraraq, səs və təsvirin tanınması proqramı yeni bir ağıllı varlıq yaradır. Təbrik edirik, siz Frankensteyn yaratdınız! Siz sadəcə ağ səs-küy proqramı tərəfindən yaradılan bir şey eşitmədiniz. Siz efemer, akustik olsa da, ağıllı və "canlı" yeni bir məxluq yaratdınız.

Onlar bir ruh çağırmaq istədilər, amma bunun əvəzinə başqa bir şey gətirdilər.

Şübhə yoxdur ki, yeni tədqiqat elmi prosesə böyük təsir göstərəcək. Hər şeydən əvvəl, süni intellektin necə davranacağı sualını əhatə edir. Süni intellekt öz yaradıcılarından qoparaq öz həyatını yaşayacaq. Bu qaçılmazdır. Buna sevinirsiniz, ya kədərlənirsiniz, özünüz qərar verin. Şəxsən mən əhəmiyyətli bir şeyin asılı olduğu heç bir prosesdə süni intellektə etibar etməzdim.

***Müəllif- Yevgeni Arsyuxin***
***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
9 avqust
2024-cü il

# Azərbaycan idmançısı Paris Olimpiadasında gümüş medal qazanıb




***Azərbaycan "Paris-2024" Yay Olimpiya Oyunlarında növbəti medalı qazanıb. Bu dəfə fəxri kürsüyə taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) qalxıb. Mübarizəyə 1/8 finaldan başlayan idmançımız ilk görüşündə irlandiyalı Cek Uolleyə qalib gəlib. Ardınca ispaniyalı Adrian Visenteni üstələyən taekvondoçumuz yarımfinalda İtaliya təmsilçisi Vito Akviladan güclü olub.***

Finalda Cənubi koreyalı Park Taeçjunu sınağa çəkən Q.Maqomedov ilk hissədə ayağından ciddi zədə alıb. Görüşü davam etdirə bilməyən idmançımız yekunda məğlub elan edilib və gümüş medalla kifayətlənib.

Qeyd edək ki, bununla da Azərbaycan idmançılarının Paris Olimpiadasında qazandığı medalların sayı 4-ə çatıb. Daha əvvəl cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu adını qazanıb, boksçu Alfonso Dominqes (92 kiloqram) isə finala vəsiqə qazanmaqla ən azı gümüş mükafatı təmin edib.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Bakıda mənzildən qızıl-zinət əşyaları oğurlayan şəxs saxlanılıb



Bakının Binəqədi rayonu ərazisində yerləşən mənzillərin birindən 6 min manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Binəqədi Rayon Polis İdarəsinin 7-ci polis bölməsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən 1979-cu il təvəllüdlü Pərviz Məmmədov müəyyən olunaraq saxlanılıb.

Axtarış zamanı ondan narkotik vasitələr olan heroin və metamfetamin aşkar olunaraq götürülüb. Saxlanılan şəxslə bağlı aparılan araşdırmalar nəticəsində onun narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətə görə axtarışda olması da müəyyən edilib. Faktla bağlı araşdırmalar davam etdirilir.



## Azərbaycan nefti 3 dollar bahalaşıb

***Dünya bazarında Azərbaycan neftinin qiyməti artıb. SİA xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 3,01 dollar və ya 3,77 faiz artaraq 82,84 dollar olub.***

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Körpə gündə ən azı səkkiz dəfə ana südü ilə qidalanmalıdır



### Həkim-pediatrdan mühüm məsləhətlər

Ana südündə olan maddələr qadının qidalanması ilə əldə edilir. Bu barədə Səhiyyə Nazirliyinin rəsmi instaqram hesabında K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun həkim-pediatrı Aygün Məmmədova bildirib.

Onun sözlərinə görə, əvvəllər körpəyə süd verən qadının rasionu məhdudlaşdırılırdı və xüsusi pəhriz təklif edilirdi. Son zamanlar isə demək olar ki, həmin məhdudiyyət aradan qaldırılıb: "Ümumiyyətlə, ana südünün keyfiyyəti ananın pəhrizindən asılı deyil. Ana südü kifayət qədər sabit tərkibə malikdir və yalnız ananın qida rasionundan seçici şəkildə təsirlənə bilir. Yalnız suda həll olunan vitaminlərin (C və B qrup vitaminləri) tərkibi birbaşa ananın qidalanmasından asılıdır. Qida ilə B1, A və D vitaminlərinə olan ehtiyac ödənilmədikdə ana südündə həmin maddələrin miqdarı daha az olur. Odur ki, süd verən analar bədənlərinin kifayət qədər D və B qrup vitaminləri, dəmir, kalsium və sink almasını təmin etməlidirlər".

Həkim-pediatr qeyd edib ki, laktasiya dövründə arıqlama məqsədilə pəhriz tətbiq edilməməlidir: "Süd verən analarda qida ilə alınan enerjinin 80 faizi "süd istehsalı" üçün istifadə olunur. Buna görə süd verən analar gündəlik 1800 kaloridən az enerji qəbul etməməlidirlər. Laktasiya dövründə ananın yod və xolinə ehtiyacı artır və bir il ərzində onlara gündəlik 290 mikroqram yod və 550 milliqram xolin istehlak etmələri tövsiyə olunur. Ona görə də körpəni əmizdirən analara balanslı şəkildə qidalanmaq məsləhət görülür. Körpə gündə ən azı səkkiz dəfə ana südü ilə qidalanmalı və hər ay orta hesabla 600-800 qram çəki artırmalıdır. Daha tez-tez qidalanma südün miqdarını və yağ tərkibini artırır".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**